Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 1 (8024) CÜMƏ, 4 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLİN DÜŞƏRLİYİ

## Və ya hər ili düşərli etmək məharəti

**2018-ci il tarixə qovuşdu - XXI əsrin tarixinə!**

**Daha bir il böyüdük, bir il cavanlaşdıq, bir il qocaldıq...**

**İllər bir-birinə bənzəyir - eyni fəsillər, isti və soyuq günlər, eyni bayramlar, oxşar tədbirlər...**

**İllər bir-birindən fərqlənir - həyatımızda müxtəlif yeniliklər baş verir, gözlənilməz dəyişikliklər olur, itiririk, qazanırıq...**

Şəxsi həyatda itirdiklərimiz olsa da, bütövlükdə dövlət miqyasında qazancımız üstünlük təşkil edir!

Çünki müstəqil Azərbaycan dövləti durmadan inkişaf edir!

Çünki yeni-yeni layihələri reallaşdırır, başladığımız əzəmətli işləri başa çatdırırıq!

Çünki elə bir siyasi kurs, elə bir istiqamət tutmuşuq ki, daim yüksələ, zənginləşə, dövlətimizi gücləndirə, xalqın rifahını ardıcıl surətdə yaxşılaşdıra bilirik!

Kapitanı mahir, uzaqgörən və müdrik olan gəmi daim sürətlə mənzilbaşına doğru irəliləyər, sualtı qaya, fırtına və qasırğa kimi təhlükəli sınaqlardan uğurla çıxar!

Adətən ilə yekun vuranda müxtəlif rəqəmlər gətirir, müqayisələr aparır, nəticələri göstərməklə uğurları sadalayırlar.

Amma xalqın deyimində çox yığcam, həm də əhatəli yekun-qiymət də var: DÜŞƏRLİ İL!

Ötən il də düşərli oldu!

Xoşbəxtlikdən son illərimizin hamısı düşərlidir!

*Ardı 3-cü səh.*

# Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır

## Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki



- Əziz həmvətənlər.

2018-ci il sona yaxınlaşır. Tam əminliklə demək olar ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkəmiz bütün istiqamətlər üzrə uğurla, sürətlə inkişaf etmişdir. Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib. Bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Mən bu il 16 xarici səfər etmişəm. Ölkəmizə 16 dövlət və hökumət başçısı səfər etmişdir və bu, ikitərəfli əlaqələrimizin nə qədər geniş olduğunu göstərir. Eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan uğurla fəaliyyət göstərmişdir. Biz beynəlxalq aləmdə layiqli yerimizi tuta bilmişik.

Qonşu ölkələrlə əlaqələrimiz daha yüksək səviyyəyə qalxıb. Bu, hər bir ölkə üçün çox önəmlidir, o cümlədən Azərbaycan üçün. Qonşu dövlətlərlə həm siyasi, həm iqtisadi və digər sahələrdə birgə apardığımız işlər bölgədə sabitliyi daha da möhkəmləndirir. Sabitliyə gəldikdə, deyə bilərəm ki, dünyada gərginlik, risklər, təhdidlər artır, Azərbaycan isə sabitlik məkanıdır. 2018-ci ildə xalqımız əmin-amanlıq, sabitlik şəraitində yaşayıb. Sabitliyin əsas səbəbi və onun mənbəyi xalq-iqtidar birliyidir.

Biz Avropa İttifaqı ilə əlaqələrimizi daha da möhkəmləndirmişik. Bu il Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədi bu münasibətlərin nə qədər yüksək səviyyədə olmasının təzahürüdür.

*Ardı 2-ci səh.*



# Əsgər Heydər Əliyevin valideynlərinə təşəkkür məktubu

Dekabrın 31-də Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) N saylı hərbi hissəsində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci-vitse prezidenti Mehriban Əliyeva tədbirdə iştirak edib.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin adından hərbi hissənin şəxsi heyətini təbrik etdi, vətənin müdafiəsi kimi şərəfli və məsuliyyətli xidmətlərində zabit və əsgərlərə uğurlar arzuladı.

*Ardı 2-ci səh.*



# Yeni ilin ilk açılışı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 3-də Əmlak Məsələləri Dövlət Komitəsinin yeni Əmlak Xidmətləri Məkanının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Prezident İlham Əliyevə burada yaradılan şərait barədə məlumat verdi. Binanın tikintisinə ötən ilin mayında başlanılıb. Müasir səviyyədə və yüksək zövqlə inşa olunan ikimərtəbəli binanın həyətində avtomobillər üçün parkinq yeri yaradılıb, abadlıq və yaşıllıq işləri görülüb.

Dövlət başçısı Əmlak Xidmətləri Məkanının rəmzi açılışını bildirən lenti kəsdi.

Əmlak Xidmətləri Məkanının yaradılmasında əsas məqsəd Əmlak Məsələləri Dövlət Komitəsinin bütün fəaliyyət sahələri üzrə göstərdiyi xidmətlərin vahid məkanda həyata keçirilməsidir.

*Ardı 2-ci səh.*

# Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın bütün pravoslav xristianlarını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Müasir dünyada multikulturalizmin ünvanlarından birinə çevrilən Azərbaycan Respublikası yüksək humanizm və dözümlülük prinsiplərinə əsaslanan mütərəqqi ictimai dəyərlərin demokratik birgəyaşayış norması kimi qəbul edildiyi nümunəvi cəmiyyətə malikdir.

Tarixən müxtəlif dinlərin və millətlərin nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində vahid ailə kimi yaşadığı Azərbaycanda pravoslavlıq say etibarilə ən böyük xristian konfessiyasıdır. Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan pravoslav xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, vətəndaş həmrəyliyinin daha da möhkəmləndirilməsində fəal iştirak edir, dinlərarası əməkdaşlıq və etimad mühitinin inkişafına öz layiqli töhfələrini verir. İnanıram ki, pravoslav xristian icması bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə əlindən gələni əsirgəməyəcəkdir.

Əziz həmvətənlər!

Hər il Azərbaycanda təntənə ilə qeyd edilən Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gün münasibətilə bir daha hamınıza bayram təbriklərimi yetirir, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 3 yanvar 2019-cu il*

# Prezidentin amalı

## Güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək

Geridə qalan 2018-ci il dövlətlərin tarixində müxtəlif hadisələrlə yadda qaldı. Lakin ili xoş ovqatla başa vurmaq ölkələrin hamısına nəsib olmadı. Aralarında müharibələrdən, sosial-iqtisadi tənəzzüldən, siyasi qarşıdurmalardan əziyyət çəkənlər çox oldu. Bəziləri isə uğursuzluq zolağından il boyu ümumiyyətlə xilas ola bilmədi.

*Ardı 3-cü səh.*

# Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır

## Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

*Əvvəli 1-ci səh.*

Bu sənəddə ölkəmizin ərazi bütövlüyü, suverenliyi, sərhədlərimizin toxunulmazlığı haqqında çox aydın fikirlər öz əksini tapıb və bir daha onu göstərir ki, Avropa İttifaqı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində düzgün mövqedədir.

İslam həmrəyliyi məsələlərində bizim rolumuz artır. İslam Əməkdaşlıq Təşkilatı bu sahədə apardığımız siyasətə çox yüksək qiymət verir və tam əminliklə demək olar ki, Azərbaycan müsəlman aləmində öz güclü rolunu daha da gücləndirə bilib. Müsəlman ölkələri tərəfindən bizə göstərilən diqqət, hörmət və rəğbət göstərir ki, Azərbaycan bu sahədə də böyük uğurlara nail olubdur.

Bu il Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi məsələsi öz həllini tapdı. Bu, hesab edirəm ki, tarixi nailiyyətdir. Çünki bildiyiniz kimi, uzun illər ərzində bu məsələ həll olunmamış qalmışdı. Ancaq bu, hazırda öz həllini tapıb və Azərbaycan bu məsələnin həllində öz dəyərli töhfəsini vermişdir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində biz prinsipial mövqeyimizdə qalırıq. Bizim mövqeyimiz haqq-ədalət mövqeyidir. Bizim mövqeyimiz beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Bütün dünya ölkəmizin ərazi bütövlüyünü tanıyır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT Təhlükəsizlik Şurasının qətnamələri tam icra edilməlidir, işğalçı qüvvələr qeyd-şərtsiz bizim torpaqlarımızdan çıxarılmalıdır.

Deyə bilərəm ki, münaqişənin həlli işində Azərbaycan 2018-ci ildə çox ciddi mövqelərə malik oldu. Bildiyiniz kimi, Ermənistanda 20 il ərzində hakimiyyəti zəbt etmiş kriminal, rüşvətxor, xunta rejimi çökdü və bu, Ermənistanın Azərbaycana qarşı apardığı işğalçı siyasətin tam iflasıdır. Onu da deyə bilərəm ki, bizim Ermənistana qarşı apardığımız çox düşünülmüş, məqsədyönlü və prinsipial siyasətimiz öz bəhrəsini verdi. Biz Ermənistanı bütün regional və beynəlxalq layihələrdən təcrid edə bilmişik, Ermənistan iqtisadiyyatının çökməsində bizim payımız da kifayət qədər böyükdür. Hesab edirəm ki, bu gün münaqişənin həlli üçün yeni vəziyyət yaranır. Ümid edirəm ki, 2019-cu ildə bu sahədə irəliləyiş ola bilər.

Bununla yanaşı, əlbəttə, hesab edirəm ki, bizim güclü hərbi potensialımız münaqişənin həlli üçün əsas amildir. Biz son illər ərzində öz hərbi qüdrətimizi böyük dərəcədə artıra bilmişik. Bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik. Azərbaycan Ordusu Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan istiqamətində uğurlu əməliyyat keçirərək 11 min hektar torpağa tam nəzarət edir. Strateji yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisindən keçən önəmli kommunikasiyalara və yollara tam nəzarət edək.

Biz bundan sonra da öz hərbi qüdrətimizi artıracağıq. Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirik və danışıqlarda iştirakımız bunun əyani sübutudur. Ancaq hər kəs bilir və bilməlidir ki, münaqişənin həlli üçün hərbi amil xüsusi rol oynayır və bundan sonra da biz hərbi qüdrətimizi artıracağıq.

Bu il məcburi köçkünlər üçün çox böyük işlər görülüb. 5800 köçkün ailəsi üçün yeni evlər, mənzillər tikilib və onlara təqdim edilib. Bu, son illərdə rekord göstəricidir. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 626 mənzil verilmişdir və biz bu siyasəti gələn il də davam etdirəcəyik.

Əlbəttə ki, bütün bu işləri görmək üçün güclü iqtisadiyyat olmalıdır və bu iqtisadiyyat var. Bu gün Azərbaycan iqtisadi inkişaf baxımından heç kimdən asılı deyil. Azərbaycan iqtisadiyyatı müstəqil iqtisadiyyatdır və bizim müstəqil siyasətimizi gücləndirən amildir. Bu il ümumi daxili məhsul artır, qeyri-neft sektoru artır, sənaye istehsalı artır, qeyri-neft sənaye sektorunda isə artım 9 faizdən çoxdur. İxracımız təxminən 40 faiz artıb. Ölkə iqtisadiyyatına 10 milyard dollar sərmayə qoyulubdur. Dünya Bankının "Doing Business" proqramının son hesablamalarında Azərbaycan dünya miqyasında 25-ci yerə layiq görülüb. Yəni, bu, onu göstərir ki, apardığımız islahatlar, şəffaflıq, ciddi iqtisadi islahatlar öz nəticəsini verir və Dünya Bankı bunu yüksək qiymətləndirir.

Biz müasir texnologiyalara böyük əhəmiyyət veririk. Bu il bizim üçüncü peykimiz orbitə buraxılmışdır. Bu, böyük hadisədir. Azərbaycan dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür və bu sahədə öz mövqelərimizi möhkəmləndiririk.

Bu il "Cənub qaz dəhlizi"nin rəsmi açılışı olmuşdur. May ayında biz bu möhtəşəm tədbiri qeyd etmişdik. Bu, böyük tarixi nailiyyətdir. Eyni zamanda, bu ilin iyun ayında TANAP layihəsi də rəsmi olaraq açıldı və beləliklə, "Cənub qaz dəhlizi"nin tam başa çatması üçün çox gözəl imkanlar yarandı. Bu, bizim tarixi nailiyyətimizdir və Azərbaycan xalqı bundan sonra onilliklər ərzində bu layihələrin faydasını görəcək.

Bu il Ələt Ticarət Limanının açılışını qeyd etdik. Bu da tarixi layihədir. Azərbaycan nəinki regionun, Avrasiyanın çox önəmli nəqliyyat mərkəzinə çevrilir. Şimal-Cənub, Şərq-Qərb dəhlizləri bizim ərazimizdən keçir. Çox güclü nəqliyyat infrastrukturu bizə imkan verəcək ki, tranzit imkanlarımızdan çox böyük səmərə ilə istifadə edə bilək.

Bildiyiniz kimi, ilin əvvəlində mənim sərəncamımla 2018-ci il "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyini həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə böyük təntənə ilə qeyd etmişik. Bugünkü Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Azərbaycan heç vaxt tarixdə bu qədər güclü, bu qədər müstəqil, bu qədər azad olmamışdır.

Bu il ölkəmizdə prezident seçkiləri keçirilmişdir. Azərbaycan xalqı bir daha mənə yüksək etimad göstərmişdir, mənim fəaliyyətimə yüksək qiymət vermişdir. Mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək.

Bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Bu fürsətdən istifadə edərək, dünyada yaşayan bütün azərbaycanlılara, soydaşlarımıza öz salamlarımı çatdırıram, onlara uğurlar arzulayıram.

Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edirəm.

Bayramınız mübarək olsun!

# Yeni ilin ilk açılışı












*Əvvəli 1-ci səh.*

Burada əmlakla bağlı bütün xidmətlər beynəlxalq standartlara uyğun qurulmaqla, şəffaflığın təmin olunması, vətəndaş məmnunluğunun artırılması, vətəndaş-məmur təmaslarının minimuma endirilməsi, xidmətlərin tam elektronlaşdırılması təmin edilib. Şənbə və bazar da daxil olmaqla həftənin bütün günləri məkanda 100-ə yaxın işçi tərəfindən xidmətlərin göstərilməsi nəzərdə tutulur. Burada könüllülərin xidmətlərindən də istifadə olunur. Binada, həmçinin BMT-nin Əlillərin Hüquqları Haqqında Konvensiyasına uyğun olaraq bu qəbildən insanların sərbəst hərəkəti üçün də bütün şərait yaradılıb. Burada notarius, bank, memarlıq və layihələndirmə işləri, əmlakın sığortalanması və poçt xidməti nəzərdə tutulub.

Əmlak Xidmətləri Məkanında 1909-2018-ci illərdə daşınmaz əmlak üzərində mülkiyyət hüquqlarını özündə əks etdirən müxtəlif dövrlərə aid hüquqmüəyyənedici mülkiyyət sənədlərinin sərgiləndiyi arxiv guşəsi də var. Binada kafe, kitabxana, uşaq oyun sahəsi də yaradılıb.

Dövlət başçısına komitə tərəfindən elektronlaşdırılan xidmətlər barədə məlumat verildi. Komitə artıq 40 xidməti elektron qaydada vətəndaşlara birbaşa və e-Hökumət portalı vasitəsilə təqdim edir. Daşınmaz əmlakın qeydiyyatı üzrə ödənilən xidmət haqqının və dövlət rüsumunun öyrənilməsi ilə bağlı vətəndaşlar üçün daha çox maraq doğuran "Əmlak kalkulyatoru" iş prinsipləri və "Elektron çıxarışın yoxlanılması" kimi elektron xidmətlər nümayiş olundu. "Elektron çıxarış" xidməti vətəndaş məmur ünsiyyətini tam məhdudlaşdırır. Belə ki, elektron imzaya sahib vətəndaş istənilən yerdən e-Hökumət portalı vasitəsilə xidmətə müraciət edir, müvafiq sənədlərini göndərir, komitə tərəfindən hazırlanmış elektron çıxarış isə onun portaldakı şəxsi kabinetinə göndərilir. Vətəndaş digər dövlət orqanlarına müraciət zamanı elektron çıxarışının düzgünlüyünü yoxlamaq üçün "Elektron çıxarışın yoxlanılması" xidmətindən istifadə edir. Qısa müddət keçməsinə baxmayaraq, artıq 8 mindən çox "Elektron çıxarış" sahibi var.

Binada elektron informasiya sistemlərinin tətbiq olunması üçün bütün zəruri infrastruktur yaradılıb və bina müasir İKT avadanlığı ilə təchiz olunub. Məkanda xidmətlərin daha dəqiq, prosedurların sürətli olması üçün elektron idarəetmə sistemini həyata keçirən qurğular quraşdırılıb. Vətəndaşlar elektron monitorlara daxil olmaqla xidmətlərdən internet vasitəsilə də istifadə edə bilirlər.

Özəlləşdirmə hərraclarının keçirilməsi ilə bağlı 100 nəfərlik hərrac zalında monitorlar vasitəsilə özəlləşməyə çıxarılan əmlaklarla tanışlıq, keçirilən özəlləşdirmə hərraclarında həm canlı iştirak etmək, həm də elektron qoşulmaqla hərraca qatılmaq imkanları yaradılıb. Özəlləşmənin elektronlaşdırılması prosesin sürətlənməsinə və investorların marağının artmasına imkan verib. Elektron hərracda elektron imzası olan hər bir vətəndaş yerindən asılı olmayaraq elektron hərrac sisteminə qoşularaq iştirak edə bilər. İndiyədək 28 elektron hərrac keçirilib və 900-dən çox əmlak satışı üzrə elektron sifariş qəbul olunub.

Burada gün ərzində 1000-ə yaxın vətəndaşa xidmət göstərilməsi planlaşdırılır. Əmlak Xidmətləri Məkanında, ümumilikdə, komitənin fəaliyyət sahələrinə uyğun 46 xidmət təqdim ediləcək. Göstərilən xidmətlərə dövlət əmlakının idarə edilməsi və özəlləşdirilməsi, dövlət və bələdiyyə əmlakı ilə bağlı hərracların təşkili, torpaq və qeyri-yaşayış sahələrinin icarəyə verilməsi, əmlakın qiymətləndirilməsi, daşınmaz əmlakın qeydiyyatı ilə bağlı müraciətlərin qəbulu, hazır sənədlərin təqdim edilməsi və digər xidmətlər daxildir.

Prezident İlham Əliyevə torpaqların idarə edilməsində istifadə olunan Peyk Müşahidə Sistemi layihəsinin iş prinsipi barədə məlumat verildi. Layihənin məqsədi torpaqlara dövlət nəzarətinin həyata keçirilməsində çevikliyin artırılması, qanunsuz tikililərin, torpağın münbit qatının korlanmasının qarşısının alınması, torpaq tədqiqatı, geobotaniki tədqiqat zamanı yeni texnologiyaların, süni intellektin imkanlarından istifadə edilməsidir. Layihə nəticəsində ölkə ərazisi peyk vasitəsilə 5 gündən bir çəkilir. Peyk vasitəsilə çəkilmiş bütün təsvirlər süni intellektin tətbiq olunduğu Peyk Müşahidə Sisteminə daxil edilir. Süni intellekt vasitəsilə təsvirlərin analizi başlayır və əvvəlki təsvirlərlə sonrakı təsvirlər arasındakı fərqlər, yəni, hər çəkilişdən sonrakı dövrdə torpaq səthində baş verən dəyişikliklər və onların koordinatları sistem vasitəsilə avtomatik olaraq müəyyən edilir. Sistem vasitəsilə torpaq səthində aşkarlanmış dəyişikliklərə yerində baxışın keçirilməsi komitənin torpaq müfəttişləri tərəfindən təmin edilir, aşkarlanmış qanunsuz tikililərin qarşısı alınır, torpağın münbit qatının korlanmasına və ümumiyyətlə, qeyri-qanuni istifadəsinə yol verilmir. Komitə ilə yanaşı, Peyk Müşahidə Sisteminin imkanlarından kənd təsərrüfatı təyinatlı torpaqlarda əkilmiş bitkilərin müəyyənləşdirilməsi və monitorinqi məqsədilə Kənd Təsərrüfatı Nazirliyi, fövqəladə hadisələr zamanı meşə yanğınlarının müəyyən edilməsi və təbiətə dəyən zərərin monitorinqi, su daşqınları zamanı dəyişikliklərin və çaylarda suların artma-azalma intensivliyinin müəyyən edilməsi məqsədilə Fövqəladə Hallar Nazirliyi, meşə fonduna daxil olan ərazilərdə dəyişikliklərin müəyyən edilməsi məqsədilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, eyni zamanda, yerli icra hakimiyyəti orqanları və bələdiyyələr tərəfindən istifadə olunacaq. Sistemin bu ilin əvvəlindən ilkin sınaqlar həyata keçirməklə tam istifadəyə verilməsi nəzərdə tutulur.

Eyni zamanda, lokal ərazilərdə torpaqlarda baş verən dəyişikliklərin öyrənilməsi, nəzarətin keyfiyyətinin artırılması, daşınmaz əmlakın kadastrı və torpaqların elektron uçotunun aparılması, məkan məlumatları və aerofoto çəkilişlərlə yanaşı, yeni texnologiya olan dron çəkilişlərindən də istifadə ediləcək.

Əmlakların 3D çəkilişlərinin aparılması məqsədilə son texnologiyalardan olan "Matterport" avadanlığından istifadə edilir. Bu innovativ avadanlıq daşınmaz əmlak, mənzil, fərdi ev, zavod, fabrik, muzey və digər tikililərin 3D modelini əldə edir, plan-çertyojları və ölçüləri avtomatik olaraq qısa müddət ərzində hazırlayır, əmlakın qeydiyyatında, hərraclarda, özəlləşdirmədə əmlak barəsində ətraflı məlumatı təqdim edir.

"Streetview" layihəsi nəqliyyat infrastrukturu obyektlərinin vizual rəqəmsallaşdırılmasını, seçilmiş yollar, küçə və prospektlər üzrə ünvan reyestrinin dayanıqlı idarə olunmasını təmin edir. Bu sistem əldə olunan məlumatların Ünvan portalına inteqrasiyasını və reyestrdə ünvanvermə işinin asanlaşdırılmasını təmin edir.

Prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.

Sonda xatirə şəkli çəkdirildi.

# Əsgər Heydər Əliyevin valideynlərinə təşəkkür məktubu









*Əvvəli 1-ci səh.*

Bildirdi ki, ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövlət başçısı İlham Əliyevin müdrik rəhbərliyi ilə inkişaf edərək daha da qüdrətlənir.

Prezident İlham Əliyevin yorulmaz səyləri sayəsində Azərbaycanın möhtəşəm uğurlara nail olduğunu qeyd edən xidmət rəisi dövlətimiz tərəfindən görülən tədbirlər



nəticəsində respublikanın müdafiə qabiliyyətinin, Silahlı Qüvvələrin hərbi-texniki potensialının durmadan möhkəmləndiyini, Azərbaycan Ordusunun dünyanın 50 ən güclü ordusu sırasına yüksəldiyini diqqətə çatdırdı. Mədət Quliyev Prezident İlham Əliyevi bir daha əmin etdi ki, Dövlət Təhlükəsizliyi Xidmətinin şəxsi heyəti Ali Baş Komandanın hər bir əmr və göstərişlərini bundan sonra da yüksək peşəkarlıqla, əzmlə və dərhal yerinə yetirəcək.

Sonra DTX-nin Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin və respublikanın tanınmış incəsənət nümayəndələrinin iştirakı ilə maraqlı konsert proqramı oldu.

Sonda hərbi hissənin xidmətdə fərqlənmiş əsgərləri mükafatlandırıldı. Həmçinin hərbi tədrisdə yüksək nəticələr əldə etmiş əsgərlərin valideynlərinə, o cümlədən əsgər Heydər Əliyevin valideyni birinci xanım Mehriban Əliyevaya təşəkkür məktubu təqdim olundu.

# Rusiya Federasiyasının Prezidenti zati-aliləri cənab Vladimir Putinə

Hörmətli Vladimir Vladimiroviç!

Maqnitoqorskda baş vermiş faciə barədə xəbər məni dərindən kədərləndirdi.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin tezliklə sağalmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 2 yanvar, 2019-cu il*



# İLİN DÜŞƏRLİYİ

## Və ya hər ili düşərli etmək məharəti

Əvvəli 1-ci səh.

2018-ci il uğurla başladı, bir sıra tarixi hadisələrlə yadda qaldı!

ƏVVƏLA, Azərbaycan xalqı növbəti dəfə öz seçimini etdi, 11 aprel 2018-ci ildə daha yeddi il müddətinə, həm də 86% səslə cənab İlham Əliyevi yenidən ölkə Prezidenti seçdi!

Əslində, bu etimadı ilə növbəti illərdə də dövlətin inkişafına, iqtisadiyyatın güclənməsinə, xalqın rifahının yüksəlməsinə, müstəqil Azərbaycanın dünyada nüfuzunun artaraq mövqelərinin möhkəmlənməsinə inam və etibarını yenidən təsdiq etmiş oldu!

İKİNCİSİ, 28 may 2018-ci ildə müstəqil Azərbaycan 100 illik yubileyini təntənəli şəkildə keçirdi, dövlət başçısı İlham Əliyev 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edildiyi barədə xüsusi sərəncam verdi!

DAHA SONRA:

- 15 sentyabr 2018-ci ildə "Azərbaycan" qəzeti 100 yaşını qeyd etdi!
- Daxili işlər orqanları, Azərbaycan Ordusu, ədliyyə sistemi də yubileylərini keçirdilər.
- 14 may 2018-ci ildə Ələt Beynəlxalq Dəniz Ticarəti Limanı işə salındı.
- 29 may 2018-ci ildə "Cənub qaz dəhlizi"nin təntənəli açılış mərasimi oldu.
- 12 iyun 2018-ci ildə TANAP istifadəyə verildi.
- 26 sentyabr 2018-ci ildə Azərbaycanın sayca üçüncü peyki "Azerspace - 2" orbitə buraxıldı.
- 19 oktyabr 2018-ci ildə "Star" neft emalı zavodunun açılışı oldu.
- İki dəfə - 26 iyun və 15 sentyabrda Bakının Azadlıq meydanında Azərbaycan-Türkiyə silahlı qüvvələrinin möhtəşəm hərbi paradı keçirildi!

> 2018-ci il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Bütün sahələrdə ölkəmiz böyük uğurlar əldə etmişdir.
>
> Dünyada 2018-ci ildə bir çox təhlükəli proseslər getmişdir və demək olar ki, beynəlxalq vəziyyət daha da gərginləşmişdir. Qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları və digər hadisələr 2018-ci ilin mənzərəsini əks etdirir. Azərbaycanda isə sabitlik, təhlükəsizlik təmin edilmişdir. Azərbaycan öz yolu ilə uğurla gedir və qarşıda duran bütün vəzifələri icra edir.
>
> **İlham ƏLİYEV**

Təkcə bir il ərzində baş tutan yubiley tədbirlərinin də, habelə həyat vəsiqəsi verilən nəhəng layihələrin də təşkilatçısı, ideya və baş müəllifi, maliyyəçisi və icraçısı cənab İlham Əliyevdir!

Müstəqil Azərbaycanı dünyaya yeni imicdə təqdim edən və sevdirən, dünya dövlətlərinin maraqlarını milli maraqlarımızla uzlaşdıran, əməkdaşlığın yeni formatlarının yaradıcısı olan Prezident İlham Əliyev!

❖ ❖ ❖

Dünya Azərbaycan Prezidentini tanıyır, hörmət və ehtiramla yanaşır, gördüyü işləri yüksək dəyərləndirir.

Elə bu il ərzində Prezidentimizin fəaliyyətinə dünya məşhurlarının bir neçəsinin verdikləri qiyməti, söylədikləri fikirləri qısa şəkildə xatırladaq:

- Belarus Prezidenti Aleksandr Lukaşenko: "İlham Əliyev daim etibar edilməli olan əsl dostdur".
- Serbiya Prezidenti Aleksandr Vuçiç: "İlham Əliyevin liderliyi ilə Azərbaycan böyük uğurlara imza atıb".
- Ravvin Abraham Kuper (ABŞ): "İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bütün dini icmaların dinc və sərbəst fəaliyyəti üçün şərait yaradılıb".
- Rusiya Jurnalistlər İttifaqının sədri Vladimir Solovyov: "Hiss edirəm ki, Prezident gün ərzində mətbuatı şəxsən izləyir. İş burasındadır ki, Prezident İlham Əliyev Qərb mediasını ingilis, bizimkini rus, Türkiyə mətbuatını isə türk dilində izləyir".
- Rusiya Federasiyası Çeçenistan Respublikasının başçısı Ramzan Kadırov: "Siz təkcə Azərbaycanda deyil, bütövlükdə müsəlmanlar üçün xeyirxah işlər görürsünüz. Biz Sizin qardaşlıq münasibətləri qurduğunuzu, konfranslar keçirdiyinizi, təkcə dini liderləri deyil, bizim regionların rəhbərliyini də qəbul etdiyinizi və yalnız müsəlmanlar deyil, bütün konfessiyaları birləşdirdiyinizi görürük. Bu, çox qiymətlidir".

❖ ❖ ❖

Artıq 15-ci dəfədir ki, il uğurla başa çatır!

İlləri uğurlu və düşərli edən İlham Əliyevin düşünülmüş, uzaqgörən, hər addımı irəlicədən ölçülüb-biçilən siyasətidir!

Bu siyasət ulu öndər Heydər Əliyevin yaratdığı möhkəm təmələ, alternativsiz siyasi kursa əsaslanır!

Bu siyasət dövrün, zamanın tələblərinə, Azərbaycan xalqının arzularının gerçəkləşməsinə, rifahının durmadan yüksəlməsinə xidmət edir!

Bu siyasət mahiyyətcə dövləti və milli maraqlara, ölkə qarşısındakı hədəflərə tezliklə çatmağa hesablanıb.

İşimiz daima uğurlu, illərimiz düşərli olsun!

**Bəxtiyar SADIQOV**

# 20 Yanvar faciəsinin 29-cu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiqlənib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib. AZƏRTAC xəbər verir ki, sənədə əsasən respublikanın şəhər və rayonlarında, idarə və təşkilatlarda 20 Yanvar hadisələrinin mahiyyətini əks etdirən konfrans, toplantı və mühazirələrin təşkili, 20 Yanvar gününün Azərbaycanın suverenliyi, istiqlaliyyəti və ərazi bütövlüyü uğrunda mübarizə rəmzi kimi qeyd olunması ilə bağlı tədbirlərin keçirilməsi, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların, bədii və sənədli filmlərin nümayiş etdirilməsi nəzərdə tutulur.

Həmçinin dünya ictimaiyyətinin diqqətini bu faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar hadisələri barədə müxtəlif dillərdə materialların hazırlanması və yayılmasının təmin olunması barədə tapşırıqlar verilib.

Tədbirlər planına əsasən, respublikanın bütün tədris müəssisələrində faciəyə həsr edilmiş xüsusi dərs keçiləcək, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardımlar göstəriləcək, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılacaq, faciə qurbanlarının xatirəsinə həsr olunan dini mərasimlər təşkil ediləcək.

Bundan başqa, sərəncamda paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində 20 Yanvar faciəsinin iyirmi doqquzuncu ildönümü ilə əlaqədar hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər planlaşdırılır.

# Prezidentin amalı

Əvvəli 1-ci səh.

### 2018-ci il Azərbaycan üçün uğurlu dövr oldu

Təbii ki, ili yüksək əhvali-ruhiyyə ilə başa vuranlar da az oldu. Əgər belə dövlətlərin adlarını bir-bir sadalasaq, Azərbaycan öncüllər sırasında yer tutar ki, bunun da kifayət qədər obyektiv səbəbləri var. Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə xalqımıza təbrikinin əvvəlində 2018-ci ilin ölkəmiz üçün uğurlu dövr olduğunu bəyan etdi: *"Tam əminliklə demək olar ki, 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. Ölkəmiz bütün istiqamətlər üzrə uğurla, sürətlə inkişaf etmişdir. Azərbaycan güclü ölkə kimi dünya miqyasında özünü təsdiqləyib".*

Cənab İlham Əliyevin sözlərindəki həqiqəti daha yaxından anlamaq üçün ötən il ərzində Azərbaycanda cərəyan edən siyasi-iqtisadi proseslərə diqqət yetirmək kifayət edir. Cənab Prezident təbrikində bu məsələlərə qısa da olsa nəzər salır.

Başlayaq ondan ki, planetimizin real mənzərəsi ürəkaçan deyil. Əfsuslar olsun ki, son illərdə beynəlxalq münasibətlərdə özünü göstərən ziddiyyətlər aradan qalxmaq əvəzinə daha da dərinləşir. Söndürülən hansısa müharibə ocağının yerinə başqası alovlanır. Hərbi-siyasi, milli-dini toqquşmalar, ayrı-ayrı qütblərdə dayanan dövlətlərin intensivləşən siyasi çəkişmələri bitmək bilmir. Hər ötən gün geosiyasi mübarizənin və hərbi ritorikanın yüksəlməsi ilə yadda qalır. Azərbaycanda isə tamamilə fərqli ab-hava hakimdir. Dövlət başçısının təbrikində qeyd edildiyi kimi, Azərbaycan sabitlik məkanıdır və bunun əsas səbəbi xalq-iqtidar birliyidir.

Bəli, sabitlik və əmin-amanlıq dövlətimizin uğurları sırasında mühüm yer tutur. Sabitlik inkişaf, qeyri-sabitlik isə tənəzzül və anarxiya deməkdir. Azərbaycanda 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə əsası qoyulan sabitlik Prezident İlham Əliyevin siyasi müdrikliyi və uzaqgörənliyi ilə daha da möhkəmlənib. İndi bu sabitliyi heç bir qüvvə poza və ya sarsıda bilməz.

### Siyasi-ictimai nailiyyətlərlə zəngin il

2018-ci ilin ölkəmiz üçün başqa bir özəlliyi isə həm də siyasi-ictimai hadisələrlə zəngin olmasıdır. İlin ən böyük siyasi hadisəsi, təbii ki, aprel ayında keçirilən prezident seçkiləri oldu. Aprelin 11-də keçirilən prezident seçkiləri bir daha təsdiq etdi ki, respublikamız demokratiya yolu ilə inamla irəliləyir. Ona görə də bu mühüm siyasi hadisə bütün parametrləri ilə Azərbaycanın tarixinə demokratik və azad seçkilərdən biri kimi düşdü. Seçkinin nəticələri dünyanın nüfuzlu siyasi dairələri, o cümlədən populyar xarici KİV tərəfindən də yüksək qiymətləndirildi. Bütün rəylərdə, informasiyalarda seçkilərin olduqca ədalətli və şəffaf keçirildiyi, ölkəmizin demokratik dəyərlər yolu ilə inkişaf etdiyi birmənalı şəkildə öz əksini tapdı.

Səsvermənin nəticəsi isə cəmiyyətimizin bütün təbəqələrinin mənafelərini özündə ehtiva edən, ölkəmizi inkişaf yoluna çıxaran siyasi kursun alternativsizliyini bir daha sübuta yetirdi. Bu seçki də, əvvəlkilər kimi, xalqımızın müdrik və dəyişməz seçiminə əsaslandı. Ölkə vətəndaşları növbəti dəfə Heydər Əliyev siyasi kursunun zəfərinə, bu kursun davamçısı kimi ötən 15 ildə Azərbaycanın bütün uğurlarının müəllifi olan cənab İlham Əliyevə səs verdilər. Xalqımıza təbrikdə cənab İlham Əliyev bu barədə deyir: *"Bu il ölkəmizdə prezident seçkiləri keçirilmişdir. Azərbaycan xalqı bir daha mənə yüksək etimad göstərmişdir, mənim fəaliyyətimə yüksək qiymət vermişdir. Mən son 15 il ərzində Prezident kimi çalışmışam ki, xalqa ləyaqətlə xidmət edim. Bundan sonra da çalışacağam ki, Azərbaycanın inkişafı, Azərbaycanın gücləndirilməsi, xalqın rifahının artması üçün əlimdən gələni əsirgəməyim. Mənim bir amalım var: güclü Azərbaycan dövləti qurmaq və xalqa ləyaqətlə xidmət etmək".*

2018-ci il yubileylər dövrü kimi tarixə düşərək ölkəmizin ictimai həyatında mühüm hadisələrlə əlamətdar oldu. Azərbaycan xalqı ötən il ulu öndər Heydər Əliyevin 95 illik yubileyini böyük təntənə ilə qeyd etdi. İlin başqa bir hadisəsi isə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi oldu. Azərbaycanın beynəlxalq mövqeyi və xarici siyasəti baxımından başqa bir mühüm hadisə isə Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı konvensiyanın imzalanmasıdır. Cənab Prezidentin qeyd etdiyi kimi, bu, tarixi nailiyyətdir.

### Regiona və dünyaya səs salan meqalayihələr

Təbii ki, yuxarıda sadalanan hər bir məsələ Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi və nüfuzunun yüksəlməsi baxımından kifayət qədər mühüm əhəmiyyətə malikdir. Lakin bunlarla yanaşı, iqtisadiyyat, nəqliyyat və enerji təhlükəsizliyi sahəsində reallaşan layihələr 2018-ci ildə Azərbaycanın möhtəşəm uğurları kimi tarixə düşdü.

Bu layihələrdən ikisi may ayında başa çatdırılaraq istifadəyə verildi. Bunlardan biri Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksidir. Bu kompleksin istifadəyə verilməsi Azərbaycanın yerləşdiyi bölgədəki aparıcı rolunu bir qədər də yüksəltdi. Layihənin başa çatdırılması həm də onu göstərdi ki, ölkəmizdə güclü nəqliyyat-logistika infrastrukturunun formalaşdırılması istiqamətində qarşıya qoyulan vəzifələr uğurla reallaşır.

Mayın 29-da rəsmi açılışı olan "Cənub qaz dəhlizi" isə Azərbaycanın enerji siyasətinin növbəti möhtəşəm uğuru kimi tarixə düşdü. "Cənub qaz dəhlizi"nin açılışı göstərdi ki, Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə layiqincə çatır. Bu hadisə ilə ölkəmizin həyatında və neft-qaz sənayesinin inkişafında yeni dövr başladı.

Bundan bir neçə gün sonra isə həyata keçirdiyi möhtəşəm neft-qaz layihələri ilə Avropanın enerji xəritəsinə dəyişikliklər etməyi bacaran Azərbaycanın növbəti qlobal təşəbbüsü həyata vəsiqə aldı. Təməli 3 il əvvəl, 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda qoyulan layihə üzrə bütün işlər həm Azərbaycanın, həm də Türkiyənin siyasi iradəsi ilə vaxtında icra edildi.

BTC neft və BTƏ qaz kəmərlərinin inşasının uğurla başa çatdırılmasına nail olan Prezident İlham Əliyev həm də ölkəmizin növbəti enerji layihələrinin müəllifidir. Reallıq ondan ibarətdir ki, həm "Cənub qaz dəhlizi"nin, həm də onun başa çatan seqmentlərinin həyata vəsiqə almasının təşəbbüskarı Prezident İlham Əliyevdir. Məhz İlham Əliyevin iradəsi, qətiyyəti, bu mürəkkəb layihənin ərsəyə gəlməsini diqqətdə saxlaması, prosesləri koordinasiya etməsi nəticə etibarilə Azərbaycandan Avropaya uzanan yeni qaz kəmərinin reallığa çevrilməsini şərtləndirdi.

### Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir

Azərbaycanın həll olunmamış yeganə problemi ərazilərimizin işğal altında qalmasıdır. Lakin Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə respublikamızın yüksəlişi, əldə olunan siyasi-iqtisadi nailiyyətlər, ordumuzun qüdrətlənməsi, möhkəm beynəlxalq mövqelərimiz bizi sürətlə Böyük Qələbəyə aparır. Danışıqlar prosesində isə Azərbaycanın mövqeyi prinsipialdır.

2018-ci ildə Azərbaycan danışıqlar prosesində özünün diplomatik üstünlüyünü davam etdirdi. Bununla bərabər Azərbaycanda ordu quruculuğu daimi olaraq prioritetdir. Ötən il Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının və Bakının bolşevik-daşnak işğalından azad edilməsinin 100 illiyi münasibətilə keçirilən hərbi paradlar Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərbi baxımdan dünyanın ən güclüləri sırasında yer almasının növbəti təsdiqi oldu. Azərbaycanın Naxçıvan istiqamətində həyata keçirdiyi uğurlu Günnüt əməliyyatı isə hələ də Ermənistanda iqtidarla müxalifət arasında mübahisə mövzusu olaraq qalır. Tərəflər Azərbaycanın bu uğuruna görə məsuliyyəti bir-birinin üzərinə atır. Prezident İlham Əliyev xalqa təbrikində bu məsələlərə toxunaraq deyib: *"Bu il ölkəmizdə iki dəfə keçirilmiş hərbi parad bizim gücümüzü, bizim güclü ordumuzun potensialını göstərir. Ən müasir silahlarla, texnika ilə təchiz edilmiş Azərbaycan Ordusu çox yüksək döyüş qabiliyyətinə malikdir və biz bu il bunu bir daha təsdiq etdik. Azərbaycan Ordusu Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan istiqamətində uğurlu əməliyyat keçirərək 11 min hektar torpağa tam nəzarət edir. Strateji yüksəkliklərin əldə edilməsi bizə imkan verir ki, Ermənistan ərazisindən keçən önəmli kommunikasiyalara və yollara tam nəzarət edək".*

2018-ci il Azərbaycanda bütün sahələrdə uğurlarla əlamətdar oldu. O cümlədən iqtisadi sahədə ümumi daxili məhsul artdı, xüsusən qeyri-neft sektorunda bu göstərici 9 faizdən çox oldu. İxrac təxminən 40 faiz artdı, iqtisadiyyata 10 milyard dollar sərmayə qoyuldu. Bütün bunlar o reallığı təsdiq edir ki, islahatlar öz bəhrəsini verir. Bütövlükdə sadalanan bütün uğurlar cənab İlham Əliyevin Prezident kimi amalının və xalqa ləyaqətli xidmətinin nəticələridir. İllər isə bir-birindən uğurludur və 2019-cu ilin də möhtəşəm nailiyyətlərlə zəngin olacağı şübhəsizdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Ermənistanın Dağlıq Qarabağ münaqişəsi barədə yalan informasiya yaymaq cəhdləri ilə bağlı BMT-nin Baş katibinə məktub ünvanlanıb

Ermənistanın Azərbaycanın Konstitusiyasını, BMT Nizamnaməsini, beynəlxalq hüququn normalarını və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini kobudcasına pozaraq, Azərbaycanın işğal edilmiş ərazilərində yaratdığı qondarma qurum adından BMT çərçivəsində kağızların yayılması ilə bağlı ölkəmizin Birləşmiş Millətlər Təşkilatındakı (BMT) daimi nümayəndəsi Yaşar Əliyev BMT-nin Baş katibi Antonio Quterreşə etiraz məktubu ünvanlayıb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, məktubda Ermənistanın hərbi gücdən istifadə edərək Azərbaycan ərazilərini, o cümlədən Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğal etdiyi və bu ərazilərdə bütün qeyri-ermənilərə qarşı etnik təmizləmə həyata keçirərək rasist azlıq rejimini yaratdığı qeyd olunur. Ermənistanın başladığı müharibə nəticəsində on minlərlə azərbaycanlının həyatına son qoyulduğu, şəhərlərin, qəsəbələrin, kəndlərin darmadağın edildiyi, bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarından və mülklərindən zorla qovulduğu və minlərlə insanın münaqişə ilə əlaqədar itkin düşdüyü vurğulanır.

Məktubda qeyd olunur ki, Ermənistan qanunsuz rejimi təbliğ etməklə danılmaz faktları təkzib etməyə və məsuliyyətdən boyun qaçırmağa çalışır, BMT üzvlüyündən sui-istifadə edərək beynəlxalq ictimaiyyəti çirkin saxtalaşdırma yolu ilə yanıldır və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinə qarşı etinasızlığını nümayiş etdirir.

Ermənistanın bu hərəkəti onun münaqişənin sülh yolu ilə həllinin konstruktiv axtarışından uzaq olduğunu nümayiş etdirir. Ermənistanın bəyan etdiyi öhdəlikləri ilə onun əməlləri münaqişənin siyasi həlli məqsədi baxımından hər zaman ziddiyyət təşkil edib.

Vurğulanır ki, Ermənistanın BMT və digər beynəlxalq təşkilatlarda qanunsuz rejim adından yaydığı kağızlar boş və dəyərsizdir, onlar rədd edilməli və nəzərə alınmamalıdır.

Məktubda həmçinin Azərbaycan ərazilərinin işğalını pisləyən, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmət edən, Dağlıq Qarabağı Azərbaycan Respublikasının tərkib hissəsi kimi təsdiq edən və Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinə istinad edilir. ATƏT-in Minsk qrupunun 9 ölkəsi tərəfindən təsdiqlənmiş 1993-cü ilin 4 noyabr tarixli bəyannaməsinin, xüsusilə "güc vasitəsilə torpağın zəbt edilməsi qəbul edilə bilməz və ərazilərin işğalı beynəlxalq tanınma əldə etmək üçün və ya hüquqi statusun dəyişdirilməsi üçün istifadə oluna bilməz" fikrinə istinad öz əksini tapır. Eləcə də Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazilərin qanunsuz işğalı və bu ərazilərdə hərbi mövcudluğu məsuliyyətinin təsdiq olunduğu Avropa İnsan Haqları Məhkəməsinin Böyük palatasının "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə 2015-ci ilin 16 iyun tarixli qərarı xatırladılır.

Məktubda qeyd olunur ki, Ermənistanın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini, yəni Dağlıq Qarabağ və işğal olunmuş digər əraziləri müxtəlif saxta adlarla təqdim etmək cəhdləri düzgün deyil, çünki bu, beynəlxalq hüququn, Azərbaycan Konstitusiyasının və qanunvericiliyinin, eləcə də Birləşmiş Millətlər çərçivəsində coğrafi adların beynəlxalq standartlaşdırılması prinsiplərini və prosedurlarını açıq şəkildə pozur. Ermənistanın bu kimi cəhdləri açıq şəkildə işğal olunmuş ərazilərdən Azərbaycan tarixinin və mədəniyyətinin izlərinin silinməsi və tarixin saxtalaşdırılması məqsədini güdür.

Azərbaycanın BMT yanında nümayəndəliyinin rəhbəri məktubunun sonunda vurğulayır ki, Ermənistanın anneksionist və müstəmləkəçi siyasətinin uğurlu olmaq şansı yoxdur. Dağlıq Qarabağ hər zaman Azərbaycanın ayrılmaz tərkib hissəsi olub və bu, belə də qalacaq. Ermənistanın işğalçı siyasətinin nəticələrinin aradan qaldırılması, onun silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunması, azərbaycanlı məcburi köçkünlərin öz evlərinə və mülklərinə geri dönməsi təmin olunacağı təqdirdə sülh, təhlükəsizlik və sabitliyə nail olmaq mümkündür.

Qeyd etmək istərdik ki, sözügedən məktub BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının sənədi kimi yayılacaq.

# Həm sərhəddə, həm də səngərdə xidmət aparan sərhədçilərimizlə bir gün









Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi potensialını nəzərə alaraq, Ermənistan ilə dövlət sərhədinin Qazax və Ağstafa rayonları ərazisindən keçən hissəsindəki döyüş postlarının və müvafiq hərbi obyektlərin DSX tərəfindən təhvil alınması barədə tapşırıq verib.

Sərhədçilərimizə yüksək etimadın ifadəsi olan və Azərbaycan Respublikasının dövlət sərhədlərinin tam mühafizə altına götürülməsinin əsasını qoyan bu tapşırığın Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən şərəflə icrası, sərhədçilər üçün bu ərazilərin həm sərhəd, həm də səngər olması və burada xidməti-döyüş fəaliyyətinin DSX-nin Sərhəd Qoşunları tərəfindən təşkil edilməsi, hazırda bu istiqamətdə dövlət sərhədinin mühafizəsi sisteminin yaradılması məqsədilə ardıcıl və dinamik işlər həyata keçirilir.

Görülən işlərlə və düşmənlə ön səngərdə üz-üzə xidmət aparan sərhədçilərimizlə görüşmək, döyüş növbəsi çəkən şəxsi heyətin xidməti ilə yaxından tanış olmaq üçün AZƏRTAC-ın çəkiliş qrupu Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsində olub.

Çəkiliş qrupumuz ön xətdə səngərdə əsgər, gizir və zabitlərlə görüşüb, döyüş növbəsi çəkən sərhədçilərimizin xidməti ilə yaxından tanış olub, düşmənin mövqelərini müşahidə ediblər.

Qazaxdakı sərhəd məntəqələri qoşunların qarşıdurma nöqtəsindəki ən yaxın postlardan hesab olunur. Burada düşmənlə ən yaxın post 50-70 metrdən başlayır. Hazırda biz "Qazax" sərhəd dəstəsinin xidməti ərazisində, düşmənlə üz-üzə olan məntəqələrdən birindəyik. Düşmən ordusunun ön xətti ilə olduğumuz postun arasındakı məsafə 50-100 metrdir. Burada düşmənin bütün mövqeləri açıq-aydın görünür və müşahidə altında saxlanılır. Postda duran sərhədçilərimiz öz xidmətlərini şərəflə yerinə yetirirlər. Ön xətdə yerləşən bütün məntəqələrdə xidmətə DSX-nin peşəkar heyəti cəlb olunub, ən müasir silah-sursat və texnikalarla təmin edilib. Burada yerləşdirilən tank əleyhinə idarəolunan raket kompleksinin təyinatı düşmənin zirehli texnikalarının məhv edilməsidir. "Kobra" maşını üzərində quraşdırılan kompleks gecəgörmə cihazı ilə də təchiz olunub. Bu kompleks məhdud görünmə şəraitində də düşmənin texnikasını məhv etmək qabiliyyətinə malikdir. Çevik bölmələrin vaxtında döyüş meydanına gətirilməsi üçün təyin olunan taktiki döyüş maşınının üzərində isə 12,7 millimetrlik pulemyot (DŞK) quraşdırılıb.

Buradakı texnikalar içərisində diqqətimizi çəkənlərdən biri də "Toyota" avtomaşınlarının üzərində quraşdırılmış uzaq məsafəli müşahidə-nəzarət sistemi oldu. Qeyd edək ki, hazırda bu sistem dünyanın bir neçə güclü ordusunun istifadəsində yer alır. Kompleks yüksək perfomanslı gündüz, gecə və termal kamera, lazer məsafəölçən, GPS və rəqəmsal kompasdan ibarətdir. Sabitləşdirilmiş sistem hədəfləri avtomatik izləmə qabiliyyətinə malikdir. Kompleks düşmən mövqelərini, obyektlərini, şəxsi heyətini, zirehli texnikasını və arxa hüdudda olan hərəkətlərini 40 kilometr dərinlikdə müşahidə edir. Bütün çəkilişlər qeydə alınır.

Sərhəd məntəqələrinin havadan müdafiəsinin yüksək səviyyədə təşkil olunması üçün məntəqələrdə daşınan zenit raket kompleksi də yerləşdirilib. Məntəqələr düşmən obyektlərini, texnikasını və digər zirehli maşınlarının aşkarlanması, müşahidə altında tutulması və təyin edilməsi məqsədilə ən müasir müşahidə cihazları, eləcə də rabitə vasitələri ilə təchiz edilib.

Burada düşmənin bütün hərəkətlərinə peşəkar snayperlər tərəfindən nəzarət olunur. Məntəqələrdə xidmətdə istifadə olunan ən müasir snayper tüfəngi düşmənin 2500 metr məsafəyədək canlı qüvvəsini və zirehli texnikasında olan şəxsi heyətini, eləcə də texnikanı məhv etmək qabiliyyətindədir. Tüfəngin üzərindəki optik nişangah isə öz sinfində birincidir.

Təmas xəttinin ön postlarında gecə-gündüz növbə çəkən əsgərlər, gizirlər və zabitlər düşməndən qətiyyən çəkinmədiklərini bildiriblər. Xidmət apardığı sərhəd məntəqəsi haqqında məlumat verən kapitan Ağayev bildirib ki, hazırda olduğumuz sərhəd məntəqəsi ən əlverişli mövqelərdən birində yerləşir. İstifadəmizdə olan silah və döyüş texnikası, ən müasir texniki vasitələr bizə düşmənin bir neçə postunu nəzarətdə saxlamağa imkan verir. Keçirilən təlimlər və məşqlər sayəsində hərbi qulluqçularımız ən yeni silahlardan, xüsusi texnikadan istifadə qaydalarına yiyələniblər. Silah və texnika döyüş tətbiqinə hazır vəziyyətdə saxlanılır. Şəxsi heyət düşmənin istənilən təxribatına layiqincə cavab verməyə hazırdır.

Hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyəti barədə məlumat verən kapitan Ağayev qeyd edib ki, döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsi bilavasitə şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasından asılıdır. Sərhəd məntəqələrində xidmət aparan sərhədçilərin əksəriyyəti könüllü olaraq burada xidmət aparmaq üçün müraciət etmiş hərbi qulluqçulardır. Şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti və döyüş ruhu çox yüksəkdir. Sərhədlərimizin keşiyində dayanmaqdan şərəf və qürur duyuruq. "Azərbaycanın hər bir sərhədçisinin ən böyük arzusu işğal altındakı torpaqlarımızın azad edilməsi, ölkəmizin sərhədlərinin bütövlüyünün təmin olunması, həmin ərazilərdə Azərbaycan bayrağının dalğalanmasıdır. Bu, Azərbaycanın hər bir sərhədçisinin şərəf işidir", - deyə kapitan Ağayev bildirib.

Sərhədçi olması ilə fəxr etdiyini deyən kiçik çavuş Əzizov bildirib: "Ailə üzvlərim, bütün xalqımız əmin olsun ki, sərhədlərimizi göz bəbəyimiz kimi qoruyuruq. Bizə göstərilən etimadı şərəfli xidmətimizlə doğruldacaq, Azərbaycan dövlətinə və xalqına daim sədaqətlə xidmət edəcəyik. Doğma Vətənimizin sərhədlərinin keşiyində dayanmaq hər bir əsgər üçün böyük şərəfdir. Xoşbəxtəm ki, bu şərəf mənə də nəsib olub".

Ermənistanın Müdafiə Nazirliyinin bölmələri ilə üz-üzə sərhəd döyüş məntəqəsində xidmət aparan gizir Əsədov isə sərhəd məntəqələrində xidmət etmələri, yaşamaları və istirahətləri üçün hər cür şəraitin yaradıldığını vurğulayaraq deyib: "Zabitlərimiz bizə daim diqqət və qayğı ilə yanaşırlar. Bu isə bizi daha yaxşı xidmət aparmağa ruhlandırır. Təmas xəttində xidmət aparmağımız, düşmənlə üz-üzə olmağımız bizi qorxutmur, əksinə, bizi daha məsuliyyətli, hazırlıqlı, ayıq-sayıq olmağa məcbur edir. Biz daim məşqlər edir, döyüş hazırlığımızı artırırıq. Sərhəddə-səngərdə xidmət aparmaqdan şərəf və qürur duyuram".

Burada gördüklərimizdən əmin olduq ki, Ermənistanla dövlət sərhədində xidməti-döyüş fəaliyyətinin digər həmsərhəd dövlətlərlə sərhədlərin mühafizəsindən bir çox fərqli cəhətləri və çətinlikləri var. Çünki bu istiqamət həm sərhəd, həm də səngərdir. Lakin bütün çətinliklərə baxmayaraq, düşmənlə üz-üzə səngərdə durmaq Azərbaycan sərhədçisi üçün böyük şərəfdir.

Olduğumuz növbəti məntəqənin isə düşmən mövqeləri ilə məsafəsi 900 metrdir.

Məntəqədə olarkən polkovnik-leytenant Məmmədov bir neçə sualımızı cavablandıraraq qeyd etdi ki, düşmənlə təmas xəttində dövlət sərhədinin mühafizəsi və müdafiəsi digər ərazilərdən əsaslı şəkildə fərqlənir. Çünki bura sərhəd olmaqla yanaşı, həm də səngərdir. Bu isə o deməkdir ki, biz ikiqat məsuliyyətli, daha hazırlıqlı, ayıq-sayıq olmalıyıq. Sərhəd döyüş məntəqələrində xidmət aparan hər bir sərhədçi öz məsuliyyətini dərindən dərk edir və üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir. Sərhəd döyüş məntəqələrində şəxsi heyətin xidmət etməsi üçün hər cür şərait yaradılıb. Düşmən tərəfindən atəşkəs rejimi müntəzəm olaraq pozulur. Sərhəd məntəqələrimiz düşmənin istənilən təxribatının qarşısını almağa qadirdir.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" sərhəd dəstəsinin xidməti-döyüş fəaliyyətinə başladığı ərazilərdə zəruri sərhəd mühafizə infrastrukturunun yaradılması məqsədilə sərhəd xətti boyu sərhəd məntəqələrində əsaslı tikinti işləri aparılır. Sərhəd məntəqələrinə yolların, elektrik, qaz və su xətlərinin çəkilməsi davam edir. Həmçinin modul tipli müasir xidməti otaqların və evlərin quraşdırılması, səyyar mətbəxlərin, hamamların və digər təyinatlı konstruksiyaların qurulması sayəsində şəxsi heyət üçün lazımi məişət şəraitinin yaradılması, şəxsi heyətin gündə üç dəfə isti yeməklə təmin edilməsi, sərhəd məntəqələrinin su çənləri, elektrik generatorları, universal sobalar ilə təchizatı da diqqət mərkəzində saxlanılır. Məntəqələrdə qısa müddətdə zəruri şəraitin yaradılması istiqamətində çox böyük işlər görülüb, müasir tələblərə cavab verən sərhəd məntəqələri tikilir, sərhədboyu yollar bərpa edilir.

Hərbi hissənin və digər sərhəd bölmələrinin zabit və gizirlərinin ailələri üçün xidməti mənzillərin inşası və mövcud binaların əsaslı təmir edilərək yararlı vəziyyətə gətirilməsi üzrə də işlər aparılır. Yaxın zamanlarda beşmərtəbəli yaşayış binası hərbi qulluqçularımızın istifadəsinə veriləcək. Əsaslı tikinti işlərinə yerli əhali cəlb olunub. Bundan başqa, hərbi hissələrdə mülki işlərə yerli sakinlər qəbul ediləcək.

Sərhədçilərimiz 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Ali Baş Komandan İlham Əliyevi və xalqımızı da təbrik etməyi unutmadılar. Həm sərhəd, həm də səngərdə olan sərhədçilərimizlə söhbət zamanı bir daha əmin olduq ki, igid əsgərlərimiz düşmənin istənilən həmləsinin qarşısını almağa hazırdır, Vətənin, sərhədlərimizin keşiyində ayıq-sayıq dayanırlar.

Sizə çətin, şərəfli və məsuliyyətli xidmətinizdə uğurlar, Azərbaycan sərhədçiləri!

**Qeyd:** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin əsas təyinatı dövlət sərhədlərinin toxunulmazlığının təmin edilməsidir. Dövlət sərhədlərimizin bütövlükdə mühafizə olunması Azərbaycan sərhədçisinin ən böyük amalı, ən vacib missiyasıdır.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Ermənistan ilə dövlət sərhədinin Dövlət Sərhəd Xidməti tərəfindən mühafizəyə götürülməsinə başlanılması barədə qərarının Azərbaycan Sərhəd Mühafizəsi üçün tarixi əhəmiyyəti var. Çünki Dövlət Sərhəd Xidmətinə bu tapşırığın verilməsi ilə sərhədlərimizin sərhədçilər tərəfindən tam mühafizə altına götürülməsinin əsası qoyulub. Bu qərar Ali Baş Komandanın Azərbaycan sərhədçisinə etimad və etibarının ifadəsidir. Qərarın yüksək səviyyədə həyata keçirilməsi Dövlət Sərhəd Xidmətinin hər bir zabitinin, gizirinin, çavuşunun, əsgərinin şərəf işidir. Sərhədçilərimiz bundan qürur duyur və fəxr edirlər.

# Müdafiə naziri cəbhə bölgəsində yerləşən zirehli texnikaların döyüş hazırlığını yoxlayıb





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti zirehli texnikaların döyüş hazırlığını yoxlayıb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müdafiə naziri hərbi hissədəki şəraitlə tanış olaraq hərbi texnikalara baxış keçirib, onların heyətlərinin hazırlığını yoxlayıb və döyüş tətbiqi ilə bağlı müvafiq tapşırıqlar verib.

# Xalq artisti Çingiz Sadıxovun xatirəsi anılıb



Dekabrın 30-da məşhur pianoçu, Azərbaycanın Xalq artisti Çingiz Sadıxovun vəfatının ildönümü ilə bağlı tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, Çingiz Sadıxovun məzarının önündə keçirilən tədbirdə Prezident Katibliyinin rəisi - Prezidentin köməkçisi, professor Dilarə Seyidzadə, Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadə, tanınmış xeyriyyəçi və televiziya aparıcısı Hacı Nuran Hüseynov, məşhur pianoçunun ailə üzvləri, dostları iştirak ediblər.

Tədbirdə çıxış edənlər sənətkarın həyat və yaradıcılığından, onun Azərbaycan musiqisində özünəməxsus yeri və xidmətlərindən bəhs ediblər. Böyük sənətkarlarımız Rəşid Behbudovu, Bülbülü, Mirzə Babayevi, Şövkət Ələkbərovanı və digər sənətkarları ən məşhur konsert salonlarında müşayiət edən Çingiz Sadıxovun vəfatını Azərbaycan mədəniyyəti və musiqisi üçün böyük itki kimi dəyərləndiriblər.

Qeyd edək ki, istedadlı pianoçu Çingiz Sadıxov ötən il dekabrın 30-da Amerika Birləşmiş Ştatlarında vəfat edib.

İlk musiqi təhsilini paytaxtdakı onillik musiqi məktəbində (indiki Bülbül adına Orta ixtisas musiqi məktəbi) alan Çingiz Sadıxov sonralar Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) fortepiano fakültəsində, Moskva Dövlət Konservatoriyasının aspiranturasında oxuyub.

Görkəmli musiqiçi Azərbaycan Dövlət Filarmoniyasının solisti və konsertmeysteri olub. Çingiz Sadıxov Bakıda 16 nömrəli musiqi məktəbinin direktoru, "Azkonsert" yaradıcılıq birliyinin bədii rəhbəri, Bakı Musiqi Akademiyasının professoru vəzifələrində çalışıb, eləcə də Yəmən Demokratik Respublikasında İncəsənət İnstitutunun təşkilatçısı və müəllimi olub. Musiqiçi 1994-cü ildən ABŞ-ın San-Fransisko, son zamanlarda isə San-Xose şəhərlərində yaşayıb.

Çingiz Sadıxov Azərbaycanın əməkdar artisti və xalq artisti fəxri adlarına layiq görülüb. Prezident İlham Əliyevin 2009-cu il 28 oktyabr tarixli sərəncamı ilə Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

# Leonid KALAŞNİKOV: "2019-cu ildə Azərbaycan xalqının daha da firavanlaşmasını və ən ağrılı problemlərin həll olunmasını arzu edirəm"

RF Dövlət Dumasının MDB Məsələləri üzrə Komitəsinin sədri Leonid Kalaşnikov "Moskva-Baku" informasiya portalına müsahibəsində Rusiya-Azərbaycan parlamentlərarası əməkdaşlığı barədə danışıb.

* * *

2018-ci il Rusiya-Azərbaycan münasibətləri üçün çox fəal olub. Ən yüksək səviyyəli qarşılıqlı səfərlər baş tutub.

Bu il beş Xəzəryanı dövlətin prezidentləri arasında konstruktiv uğurlu danışıqlarla əlamətdar olub. Həmin danışıqlar nəticəsində Xəzər dənizinin hüquqi statusu barədə Konvensiya imzalanıb. Müzakirələri 20 ildən çox davam edən Konvensiya artıq Dövlət Dumasına daxil olub və yaxın vaxtlarda ratifikasiya ediləcək.

Parlament forumları məkanında Rusiya Federasiyası Dövlət Dumasının və Azərbaycan Milli Məclisinin rəhbərləri arasında dəfələrlə görüşlər keçirilib, ilin əvvəlində Azərbaycan Parlamentinin spikeri Oqtay Əsədov Moskvaya, RF Dövlət Dumasının sədri Vyaçeslav Volodin Bakıya səfər edib, Azərbaycan Prezidenti İlham Əliyevlə görüşüb. 2018-ci ildə bizim parlamentarilər Azərbaycan parlamentinin 100 illiyinə həsr edilmiş tədbirlərdə və Bakı Humanitar Forumunda iştirak ediblər.

Rusiya ilə Azərbaycan arasında yüksək səviyyəli parlamentlərarası komissiya yaradılması barədə qərar da mühüm hadisə oldu. Rusiya üçün vacib dövlətlərlə bu cür geniş tərkibli komissiyalar yaradılmasını qərara alarkən məqsəd bu idi ki, sadəcə söhbət etməklə və ya "parlament turizmi" ilə məşğul olmaqla kifayətlənməyib, həqiqətən ciddi konkret məsələləri həll edək. Bu məqsədlə həmin komissiyaların tərkibinə parlamentin bütün aparıcı profil komitələrinin, məsələn, Nəqliyyat və tikinti komitəsinin, İqtisadi siyasət, sənaye, innovasiyalı inkişaf və sahibkarlıq komitəsinin, habelə Energetika komitəsinin rəhbərlərini daxil etmişik. Bu, parlamentlər səviyyəsində ikitərəfli əməkdaşlığın genişləndirilməsi üzərində işin sürətinin və səmərəsinin artırılmasını təmin etməyə imkan verəcək.

Komissiyaya həm Rusiya, həm də Azərbaycan tərəfindən parlament sədrlərinin müavinləri başçılıq edir.

Hazırda Rusiya 15 ölkə ilə bu cür yüksəksəviyyəli parlamentlərarası komissiya yaradıb.

2018-ci ildə humanitar və mədəni əməkdaşlıq istiqamətində də fəal tədbirlər görmüşük. Məsələn, Dövlət Dumasında bizim parlamentin tarixində ilk dəfə konkret ölkəyə həsr edilmiş milli sərgi təşkil edilib. Məhz Azərbaycanla birgə keçirilən bu sərgi böyük maraq doğurdu.

Bütün ölkəmizi təmsil edən 450 rusiyalı deputat Azərbaycan Respublikasının son illərdə necə dəyişməsini və turistlər üçün cəlbedici olmasını gördülər. Çoxları belə bir faktı özləri üçün "kəşf etdi" ki, adətən yalnız neft və meyvə ilə assosiasiya doğuran Azərbaycanda bu gün



xizək idmanı ilə məşğul olmaq imkanları Alp dağları ilə müqayisədə heç də pis deyil. Azərbaycan istər qonaqların qəbul edilməsi səviyyəsinə, istərsə də təbiətin gözəlliyinə, dağ yamaclarının idman məşğələləri üçün münasibliyinə, habelə mehmanxanaların keyfiyyətinə görə həqiqətən çox cəlbedicidir. Bu faktlar çoxları üçün əsl kəşf olub. Təsəvvür edin ki, bu gün Azərbaycanın belə potensiala malik olması barədə Rusiya əhalisinin məlumatlanma səviyyəsi çox aşağıdır. Biz Azərbaycanın belə imkanları barədə rusiyalıları məlumatlandırmalı, Turizm Nazirliyinin diqqətini bu məsələyə cəlb etməliyik. Biz Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə onunla da bu mövzuda söhbət etdik. Şəxsən mən ona dedim: Türkiyəyə fikir verin, Türkiyə kurortları Rusiyada reklam edilir. Mənə belə gəlir ki, dost Azərbaycan Respublikasının kurortları barədə də Rusiyada, hətta daha geniş miqyasda belə tədbirlər görmək olar.

Məsələn, mənim bir siyasətçi dostum bu il Azərbaycana - Şahdağda xizək sürməyə gedəcək. Azərbaycanda istirahət etməyə gedən belə insanlar çoxdur.

Bütövlükdə bizim ikitərəfli münasibətlər barədə qeyd etmək istəyirəm ki, heç nə, hətta "Cənub qaz dəhlizi"nin işə salınması da bu münasibətlərə xələl gətirə bilməz. Fikir verin, bəzi qonşularımız "Şimal axını-2" layihəsinin əleyhinə çıxış edir. Biz isə bütün bunlara rəğmən Azərbaycanla dostluğu və əməkdaşlığı davam etdiririk. Düzdür, Azərbaycan tərəfindən rəqabət bizi də sevindirmir, lakin biz başa düşürük ki, rəqabət öz yerində, amma bu səbəbdən iki dövlətin dostluğu zəifləyə bilməz. Rusiyanın bu cür qaz siyasəti bəzi işbazların, oliqarxların xoşuna gəlməyə bilər. Lakin Putinin, Rusiya dövlətinin Azərbaycana münasibətdə siyasəti dostcasına siyasətdir, biz bunu heç vaxt gizlətmirik və başqalarına da başa salırıq.

Mənim fikrimcə, həm Rusiyanın, həm də Azərbaycanın xoşbəxtliyindən, bizim bu cür münasibətlərimizin əsası ondan ibarətdir ki, hər iki ölkənin prezidentləri bu dostluğun, bu cür qarşılıqlı münasibətlərin qədrini bilir. Bu, çox vacibdir və biz əlimizdən gələni etməliyik ki, bundan sonra da belə olsun, heç kəs bunu şübhə altına almasın. Əks halda bu, Rusiyanın siyasi mənafelərinə zidd olar.

Azərbaycanla parlamentlərarası əməkdaşlığın perspektivləri məsələsinə gəldikcə, qeyd etməliyəm ki, hazırda, 2019-cu ilin lap əvvəlində Dövlət Dumasında birgə konfrans keçiriləcək.

2019-cu ildə Rusiya və Azərbaycan parlamentlərinin sədrlərinin qarşılıqlı səfərləri nəzərdə tutulur. Bu səfərlərin konkret müddətini demək hələ çətindir, lakin belə səfərlər planlaşdırılıb. Güman edirəm ki, görüşdə yüksəksəviyyəli parlamentlərarası komissiya yaradılması barədə müqavilə imzalanacaq. Rusiya tərəfindən həmin komissiya barədə sənədlər hazırlanıb, həm Xarici İşlər Nazirliyində, həm də Duma Şurasında razılaşdırılıb. Azərbaycanda son məsləhətləşmələr aparılır. Ümumiyyətlə, bu məsələ ilə əlaqədar xırda ştrixlər qalıb.

Bizim spikerlər qarşılıqlı ikitərəfli səfərlərdən əlavə bir sıra ümumi məkanlarda, o cümlədən Qazaxıstanda Avrasiya dövlətləri spikerlərinin parlament sammitində görüşəcəklər.

Biz beş Xəzəryanı dövlətin spikerlərinin Xəzər regionunun inkişafı problemlərinə həsr edilmiş konfransını keçirmək imkanını da araşdırırıq. Bu məsələ bütün 5 dövlətin spikerləri ilə müzakirə ediləcək. Lakin Azərbaycan və Rusiya, bizim spiker Volodin belə konfransın keçirilməsinə tərəfdardır. Həmin tədbiri Xəzər sahilində 5 ölkənin şəhərlərindən birində keçirmək olar.

Sonda mən Azərbaycan xalqını Yeni il münasibətilə təbrik etmək istərdim. Azərbaycan xalqına daha artıq firavanlıq, respublikanı narahat edən ən ağrılı problemlərin hamısının həll olunmasını arzu edirəm. Hesab edirəm ki, ən ağrılı problemləri yalnız qonşu ölkələr, bizim prezidentlər danışıqlar masası arxasında həll edə bilər. Lakin təəssüf ki, bu məsələyə üçüncü qüvvənin, bizim ölkələrimizdən bir neçə min kilometr uzaqda yerləşən qüvvənin müdaxilə etməsi göz qabağındadır. O, problemdən öz məqsədləri üçün istifadə edir. Mən, o cümlədən bu səbəbdən, ATƏT-in Minsk qrupuna şübhə ilə yanaşıram. 30 ilə yaxın müddət ərzində Dağlıq Qarabağ münaqişəsi problemi həll edilməyib. Mən əminəm ki, Azərbaycanın inkişafına, onun həyatına kölgə salan məsələlər həll ediləcək. Əsas odur ki, Azərbaycan Respublikası düzgün istiqamətdə irəliləyir.

Mən həm ölkənizin vətəndaşlarına, həm də onun rəhbərliyinə uğurlar arzulamaq istərdim. Mənim üçün çox xoşdur ki, Azərbaycan rus dilinin inkişafı üçün əlverişli şəraiti qoruyub saxlayır, rusdilli məktəbləri saxlayır və yenilərini açır. Mən onu həmişə nümunə gətirirəm.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın və Prezident İlham Əliyevin fəaliyyətinə, onların respublikada rus dilinin və rus məktəblərinin qorunub saxlanması məsələsinə necə yanaşmalarına xüsusi hörmət bəsləyirəm. Mən Azərbaycan vətəndaşlarına, o cümlədən Rusiyada yaşayan azərbaycanlılara uğurlar, sevgi, dostluq, xoşbəxtlik arzu edirəm. Ümidvaram ki, mənim bütün arzularım və azərbaycanlıların Yeni il axşamında ürəklərində tutduğu niyyətlər həyata keçəcək!

**AZƏRTAC**

# REGİONLAR



Azərbaycanı digər ölkələrdən fərqləndirən əsas xüsusiyyətlərdən biri multikultural dəyərlərin dövlət siyasəti səviyyəsinə yüksəlməsidir. Əsrlər boyu bütün dinlərə, mədəniyyətlərə hörmətlə yanaşılmasının nəticəsidir ki, Azərbaycan tolerant ölkə olaraq dünya birliyi tərəfindən nümunə kimi göstərilir.



# Malakanlar Azərbaycanı özlərinin vətəni hesab edirlər

Qloballaşan müasir dünyamızda dini və milli zəmində qarşıdurmaların artdığı bir vaxtda da Azərbaycanda multikultural dəyərlərə sədaqət nümayiş etdirilir. Dini və milli mənsubiyyətindən asılı olmayaraq burada yaşayan müxtəlif millətlərin nümayəndələri Azərbaycanı özlərinin ikinci vətəni hesab edirlər. Elə Gədəbəyin Novosaratovka kəndində yaşayan malakanlar kimi.

XIX əsrin sonlarında Rusiyanın Saratov vilayətindən Gədəbəyə sürgün edilən malakanlar qısa vaxt ərzində yerli əhali ilə ünsiyyət qurmuş, qaynayıb-qarışaraq cəmiyyətin üzvünə çevrilmişlər. Məskunlaşdıqları kəndə də Novosaratovka adı vermişlər. Onlara isti qucaq açan azərbaycanlılar malakanların bütün ehtiyaclarının ödənilməsində yaxından iştirak etmişlər. İllər keçdikcə malakanlarla azərbaycanlılar hətta birgə ailə həyatı da qurmuşlar.





Bu barədə danışan kənd icra nümayəndəsinin müavini Valya Hüseynova deyir ki, onun ana babası Aleksey 1880-ci ildə Saratov vilayətindən Gədəbəyə sürgün olunanlardandır. O, bütün ömrü boyu bu kənddə yaşayıb və burada da dünyasını dəyişib. Söhbət zamanı Valya Hüseynova azərbaycanlıların mehribanlığından, qonaqpərvərliyindən ağızdolusu danışdı. Dedi ki, azərbaycanlı ilə ailə qurub və buna görə heç vaxt peşman olmayıb.

Novosaratovka kəndi Gədəbəyin ən səfalı guşələrindən birində yerləşir. Uca dağlar və yaşıl meşələrlə əhatə olunmuş kəndin hazırda 2500 nəfərə yaxın əhalisi, təsərrüfatı var. 1990-cı illərdə torpaqlar kəndlilərə paylanarkən malakanlar da pay torpaqlarına sahib oldular. Həmin vaxtdan indiyədək yerli əhali ilə yanaşı, onlar da bu torpaqları əkib-becərir, dövlətin kəndliyə verdiyi güzəştlərdən yararlanırlar. Pay torpaqlarında əsasən taxıl və kartof əkən kənd camaatı hər il bu sahələrdən bol məhsul götürür. Kənddə arı ailələrinə baxanlar da çoxdur. Hazırda 12 nəfər arı saxlayır, istehsal olunmuş balı elə qapıdaca satır.

Kənd sakini Lyubov Vorobyova əsasən kartofçuluqla məşğuldur. O, keçən il 2 hektardan çox sahədə kartof əkmişdi. Hər hektardan 1,5 ton məhsul götürən L.Vorobyova deyir ki, əldə etdiyi qazanc ona artıqlaması ilə bəs edir. Nikolay Bıçkov isə pay torpağında həm taxıl, həm də kartof əkir. O da ötən il yüksək məhsuldarlığa nail olub.

Tatyana Stepanova kənd təsərrüfatının müxtəlif sahələri ilə məşğul olur. O, 2018-ci ildə 0,6 hektarda kartof, 0,5 hektarda taxıl, 0,2 hektarda tərəvəz əkmişdi. Qalan sahədə çiyələk yetişdirmişdi. Söhbət zamanı dedi ki, bu qədər əkin sahəsini oğlu Vyaçeslav və qızı Taisa ilə birlikdə becərib: "Sağ olsun dövlətimiz. Kəndə rahat yol çəkilib. Heç bir çətinlik çəkmədən yetişdirilən məhsulları aparıb bazarlarda satırıq".

Hazırda Novosaratovkada 35 malakan ailəsi yaşayır. Onlardan biri də Aleksandra Samodurovadır. Azərbaycanlı İnqilabla qurduğu ailə həyatından bir oğulları dünyaya gəlib. Dağlıq Qarabağ müharibəsi başlayandan oğlu Aleksandr cəbhədə vuruşub. Döyüşlərin birində ağır yaralanıb və əlil olub. Göstərdiyi şücaətlər dövlət tərəfindən yüksək qiymətləndirilib. Ona Bakı şəhərində mənzil verilib.

Ümumiyyətlə, kənddə beynəlmiləl ailələrin sayı çoxdur. Elə bu yaxınlarda kənd sakini Binnət Əmrahov sevib-seçdiyi Lyubov Bıçkova ilə ailə həyatı qurub. Toyda həm azərbaycanlılar, həm də malakanlar iştirak edərək gənclərə xeyir-dua veriblər.

Gədəbəydə yaşayan malakanların öz icmaları da fəaliyyət göstərir. İcmanın gördüyü işlərlə tanış olmaq üçün qurumun rəhbəri ilə görüşməyi qərara aldıq. Novosaratovka kəndində yaşayan Nikolay Bıçkov uzun illərdir ki, icmaya rəhbərlik edir. Bizi səmimi və mehribanlıqla qarşılayan Kolya (el arasında onu belə çağırırlar) çay süfrəsi açdı və ilk sözü də bu oldu ki, onun əsas məqsədi burada yaşayan malakanların adət-ənənələrini qoruyub saxlamaqdır. Kolya malakan mətbəxini, mədəniyyətini, folklorunu gələcək nəsillərə çatdırmaq üçün əlindən gələni əsirgəmir. Öz evində maraqlı muzey də yaradıb. Muzeydə yüz illik tarixi olan məişət əşyaları, şəkillər, toxuculuq avadanlıqları qorunur. Kəndə gələn turistlər muzeyə böyük maraqla baxırlar. Burada qeyri-adi eksponatlar, o cümlədən vaxtilə özünün yatdığı beşik, doğmalarının əlləri ilə toxunmuş xalçalar var.

Söhbət zamanı Nikolay Bıçkov onlara dövlət səviyyəsində göstərilən qayğıdan da danışdı. Dedi ki, kənddə yaşayan malakanların öz dillərində məktəbi, ayrıca ibadət yerləri var. Novosaratovkadan Bakıya hər gün avtobus işləyir. Rus icmasının rəhbəri mədəniyyətlərini və dinlərini yaşatmaq üçün Azərbaycan dövlətinin yaratdığı şəraitə görə bütün malakanlar adından minnətdarlığını bildirdi. Qeyd etdi ki, Prezident İlham Əliyevin Gədəbəyə səfərləri zamanı malakanlarla görüşüb səmimi söhbətlər etməsi onların qəlbində unudulmaz anlar yaşadır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# İctimai nəqliyyatın işi ictimaiyyətin istəyinə uyğun qurulur

Ötən əsrin ortalarında salınan Sumqayıt bu gün, sözün həqiqi mənasında, inkişafının yeni mərhələsini yaşayır. Hələ sovet dönəmində sənaye şəhəri statusunu alan Sumqayıt hazırda bu adı layiqincə daşıyır. İndi şəhərdə elə sahə yoxdur ki, orada yeniliklərə imza atılmasın.





İstifadəyə verilən yeni sənaye müəssisələri minlərlə insanın iş yerinə çevrilir. Ümumiyyətlə, Bakının yaxınlığında yerləşən Sumqayıt paytaxtla sanki inkişaf yarışına girib. Üstəlik, respublikada qəbul edilən Sumqayıt üslubu var. Şəhərdə həyata keçirilən hər bir layihə beynəlxalq standartlara söykənir. Çünki onlar gələcəyə hesablanır.

Belə layihələrdən biri şəhər nəqliyyatında həyata keçirilir. İndi Sumqayıtda yolların hamısı, demək olar ki, işıqforlarla nizamlanır. Şəhərdə dayanacaqlar da təzələnib. Yaraşıqlı, külək və istidən sərnişinləri qoruyan yeni dayanacaqlarda hərəkətdə olan marşrutların nömrələri də qeyd edilib.

2018-ci ilin sonlarından başlayaraq şəhərə yeni avtobuslar gətirilib. Müasir avadanlıqlarla, o cümlədən kondisionerlə təchiz edilən həmin avtobuslar, əvvəlkindən fərqli olaraq, çox ciddi vaxt qrafiki ilə işləyir.

Məlum olduğu kimi, ictimai nəqliyyatın vacib problemlərindən biri də sürücü-sərnişin məsələsidir. Sürücülərlə sərnişinlər arasında yaranan xoşagəlməz halların qarşısını almaq məqsədilə şəhərdə maarifləndirmə işləri aparılır. Sumqayıt Şəhər İcra Hakimiyyətinin təşəbbüsü ilə ictimai nəqliyyat vasitələrində "Nəqliyyat könüllüləri" devizi altında maarifləndirici aksiyalar keçirilir. Sürücü və sərnişinlər arasında ictimai davranış qaydalarının təbliği, ictimai nəqliyyatda qarşılıqlı məsuliyyətin yaradılması və digər problemləri aradan qaldırmaq məqsədilə həyata keçirilən bu layihələr sumqayıtlılar tərəfindən razılıqla qarşılanır.

Maarifləndirmə işində müxtəlif sahələri təmsil edən fəal gənclər iştirak edirlər. Onlar müxtəlif istiqamətlərdə hərəkət edən marşrutlarda sərnişinlərlə söhbət aparır, davranış qaydalarını əyani şəkildə nümayiş etdirirlər. Könüllülər həmçinin sərnişinlərə şəhər nəqliyyatının inkişafını əks etdirən bukletlər paylayır, təmizlik və səliqə-sahmanla bağlı təbliğati informasiyalar verirlər. Təkcə son bir ayda könüllülər 30-dan çox marşrutda sərnişin və sürücülərlə söhbət aparmışlar.

Sumqayıt həm də turistlərin tez-tez qonaq olduqları şəhərdir. Könüllülər onlara şəhər haqqında məlumat verir, hətta getmək istədikləri ərazilərə yola da salırlar. Həmçinin yay və payız fəsillərində xüsusi şəhərarası turist turları təşkil edirlər.

Sumqayıt Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə aparılan bu təbliğat işinin nəticəsidir ki, son vaxtlar marşrutlarda heç bir hadisə baş verməmişdir. Gələcəkdə sərnişin-sürücü davranış qaydaları ilə bağlı bir neçə layihənin də həyata keçirilməsi nəzərdə tutulub.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Qışın da öz yeri var

## Amma gərək ona vaxtında hazırlaşasan

Payız ömrünü başa vurmuş, yurdumuza, elimizə, obamıza qış gəlmişdir. Hər fəslin öz əlamətləri ilə yeri var. O cümlədən, qış da çovğunu, qarı, şaxtası ilə gözəldir. Qış sərt keçəndə, qar çox yağanda məhsul da bol olur. Amma qışın bu xüsusiyyətləri ona daha ciddi hazırlaşmağı tələb edir. Tədbirli olanlar qışın necə gəlib-getdiyini hiss etmirlər. Vaxtında tədbir görməyənlər isə əziyyət çəkir, çətinliklərlə üzləşirlər.

Lənkəranda hələ yay aylarından payız-qış mövsümünə hazırlıq işləri görülmüşdür. Şəhər icra hakimiyyətinin rəhbərliyi ilə aidiyyəti qurumların fəaliyyəti bu məsələyə yönəldilmişdir. Görülən işlərin vəziyyəti həmin idarə, müəssisə, təşkilat rəhbərlərinin iştirakı ilə icra hakimiyyətinin şura iclasında müzakirə edilmiş, ortaya çıxan bir sıra çatışmazlıqların aradan qaldırılması nəzarətə götürülmüşdür.

Məlumdur ki, indi həyatı, məişəti elektrik enerjisi olmadan təsəvvür etmək çətindir. Bu baxımdan qışda davamlı elektrik enerjisi ilə təminat birinci yerdə durur. Lənkəran Elektrik Şəbəkəsi ötən ilin payızından xidmət ərazisində olan bütün hava xətlərinə və yarımstansiyalara baxış keçirmiş, mövcud nöqsanların aradan qaldırılması üçün müvafiq tədbirlər görmüşdür. İstismara yararsız 398 izolyator, 211 elektrik dirəyi yenisi ilə əvəzlənmişdir. Yarımstansiyalarda transformatorlara yağ əlavə edilmiş, 15 min 360 metr naqil əvəz olunmuş, yeni SİP kabelləri çəkilmiş, hava xətləri ağac budaqlarından təmizlənmiş, 50 transformator yarımstansiyasında təmir işləri görülmüşdür.

"Azərişıq" ASC tərəfindən isə Haftoni qəsəbəsində, Şağlaser, Separadi, Şirinsu kəndləri ərazisində 410 dayaq qaldırılmış, 15,6 min metr SİP kabel çəkilmiş, Sərnəkaran yarımstansiyası, həmin yarımstansiyadan Kənarmeşə, Seyidəkəran kəndlərini və Aşağı Nüvədi qəsəbəsini qidalandıran hava xətləri yenilənmiş, 6 yeni elektrik transformator məntəqəsi quraşdırılaraq istifadəyə verilmişdir. Bunlarla yanaşı, yeni Lənkəran II yarımstansiyası da istifadəyə verilmişdir.

Lənkəran Regional Qaz İdarəsi də qış mövsümünə payız aylarından hazırlaşmışdır. Qazpaylayıcı stansiyalarda yenidənqurma işləri aparılmış, şəhərin bir sıra küçələrində, rayonun Digah və Şirinsu kəndlərində 5,6 min p/metr yeni qaz xətti çəkilmiş, müxtəlif ərazilərdə 4 qaztənzimləyici şkaf istismara verilmiş, istismar müddəti bitmiş 768 qaz sayğacı yenilənmişdir. "Azəriqaz" İstehsalat Birliyinin tikinti təşkilatı tərəfindən rayonun Haftoni qəsəbəsində və Xanlıqlı kəndində yeni qaz xəttinin çəkilişi başa çatdırılmış, həmin yaşayış məntəqələrinə "mavi yanacaq" verilmiş, natamam qazlaşdırılmış Lənkəran və Liman şəhərlərinin, eləcə də Separadi, Şirinsu, Şiləvar, Digah, Girdəni kəndlərinin tam şəkildə qazlaşdırılması üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldırılmış, Şovu, Əşlə və Mollakənd kəndlərinə qaz xəttinin çəkilişinə başlanılmışdır.

Mövsümə hazırlıqla əlaqədar sukanal idarəsi tərəfindən də təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. Belə ki, Xanbulan-Lənkəran su xəttinin Bürcəli, Xanbulan, Kosalar kəndləri ərazisindəki qəza vəziyyətində olan hissələrinə, habelə şəhərin müxtəlif yaşayış binalarına xidmət göstərən su və kanalizasiya nasos stansiyalarının elektrik avadanlıqlarında təmir işləri aparılmış, bir sıra çoxmənzilli yaşayış binalarının zirzəmilərindəki kanalizasiya xətlərində nasazlıqlar aradan qaldırılmışdır. "Azərsu" ASC tərəfindən rayona ezam olunmuş xüsusi təyinatlı avtomaşınla şəhərin magistral kanalizasiya xətləri yuyularaq təmizlənmiş, sıradan çıxmış 15 lük yenisi ilə əvəz olunmuş, qış aylarında su sayğaclarının şaxtadan qorunması üçün qabaqlayıcı tədbirlər görülmüşdür. Burada da idarənin balansında olan maşın-mexanizmlər əsaslı təmir olunaraq qış mövsümü üçün işlək vəziyyətə gətirilmişdir. Lənkəran şəhərinə bitişik Sütəmürdov, Vələdi, Şiləvar, Digah kəndlərinə su da çəkilməkdədir.

İstilik sistemləri istismarı sahəsi tərəfindən qazanxanaların istilik xətləri, qaz boruları və digər avadanlıqları təmir edilmişdir. Rayondakı 48 nömrəli "Yol İstismarı" MMC tərəfindən mövsümə hazırlıqla əlaqədar idarənin balansında olan avtomobil yollarında çalalara asfalt-beton çəkilmiş, çınqıl örtüklü yollarda yeniləşdirmə-hamarlama işləri aparılmış, suötürücü borular, küvetlər lildən təmizlənmiş, körpü məhəccərləri rənglənmiş, sıradan çıxan yol kənarları yenilənmişdir. Rayonun ucqar dağ kəndlərinə gedən avtomobil yollarına şəhər icra hakimiyyətinin yaxından köməyi ilə qum-çınqıl materialı tökülərək ağır texnikalar vasitəsilə genişləndirmə və hamarlama işləri görülmüş, 22 kilometrlik Hirkan-Daşdatük-Biləsər kəndlərarası avtomobil yolu yenidən qurulmuşdur.

Lənkəran Rayon Mərkəzi Xəstəxanasında və onun tabeliyində olan tibb müəssisələrində, Lənkəran Regional Mədəniyyət və Turizm İdarəsinin obyektlərində təmir işləri başa çatdırılmış, onlar odun yanacağı ilə təmin edilmişlər. Telekommunikasiya Qovşağında, "Lənkəran-Sərnişin" ASC-də, Lənkəran Regional Meşə Təsərrüfatı İdarəsində, Lənkəran Neft Terminalı Bazasında aidiyyəti üzrə zəruri tədbirlər görülmüş, mövcud maşın-mexanizmlər, avadanlıqlar saz vəziyyətə gətirilmişdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Zəhmətin şirin bəhrəsi

2018-ci il başa çatıb. İndi hər bir torpaq sahibi keçən il çəkdiyi zəhmətin müqabilində əldə etdiyi qazancı hesablayıb götür-qoy edir, bu il üçün görəcəyi işləri müəyyənləşdirir. Ağstafada apardığımız söhbətlərdən aydın olur ki, gecəni gündüzə qataraq çalışan, torpağa alın təri tökən hər bir torpaq sahibi əldə etdiyi qazancdan çox razıdır.





Rayonda kənd təsərrüfatı məhsulları istehsalının həcmi 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,1 faiz çoxdur. Bu da dövlət tərəfindən fermerlərə verilən dəstək, subsidiya, texnika təminatı sayəsində mümkün olmuşdur. Rayon üzrə ötən il müxtəlif növ kənd təsərrüfatı bitkilərinin istehsalı 89571 tona çatmışdır. Bu, 2017-ci ildəkindən 4914 ton çoxdur. Kartof, dənli və paxlalı bitkilər, tərəvəz məhsulları da xeyli artmışdır. Hazırda torpaq sahibləri cari ilin bol taxıl məhsulu üçün zəmin yaradırlar.

Ümumiyyətlə, rayonda bol kənd təsərrüfatı məhsulları istehsal etmək üçün hər il geniş hazırlıq işləri görülür. Xüsusilə payızlıq və yazlıq bitkilərin vaxtında səpilib suvarılması üçün məqsədyönlü tədbirlər həyata keçirilir, suvarma qurğularının işlək vəziyyətdə olması diqqətdə saxlanılır. Belə ki, Ağstafaçay Hidroqovşaq İstismar İdarəsi tərəfindən 19 hidrotexniki qurğu, 11 hidropost və 14 kilometr beton kanal cari, 8 selötürən, 6 suayırıcı qurğu əsaslı şəkildə təmir olunmuş, kanallar lildən və kol-kosdan təmizlənmişdir. Rayon suvarma sistemləri idarəsi də növbəti mövsümə hazırlıq işləri aparır. Bu işlərin cari ilin aprel ayınadək başa çatdırılması nəzərdə tutulmuşdur.



Ağstafa suvarma suyu ilə aztəminatlı rayonlar sırasındadır. Odur ki, əkin sahələri subartezian quyuları vasitəsilə də suvarılır. Tovuz Subartezian Quyularının İstismarı İdarəsinin Ağstafa istismar sahəsi 233 subartezian quyusuna xidmət edir. 2018-ci ildə həmin quyulardan 25-i cari, 43-ü isə əsaslı şəkildə təmir edilmişdir. Payız səpini başa çatmış əkin sahələrinin 6892 hektarı da artezianlar vasitəsilə suvarılmışdır. Hazırda rayonun Yaradullu, Aşağı Kəsəmən, Zəlimxan, Qıraq Kəsəmən, Poylu, Xətai, Qarahəsənli, Düzqışlaq və Pirili kəndlərində 10 subartezian quyusunun qazılması işləri həyata keçirilir.

Əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə də silsilə tədbirlər görülür. Ağstafa şəhəri içməli su ilə tam təmin edilmiş, Qaçaq Kərəm kəndinin su və kanalizasiya təminatı qaydaya salınmışdır. Soyuqbulaq, Qarayazı, Soyuqbulaqlar və Həzi Aslanov qəsəbələrinin, Köçvəlili və Yenigün kəndlərinin su təminatı üçün müvafiq işlərə başlanılmışdır.

Rayonun 39 yaşayış məntəqəsindən 38-i "mavi yanacaq"la təmin olunur. Yol infrastrukturunun yaxşılaşdırılması üçün də xeyli iş görülmüşdür. Keçən il Düzqışlaq-Kolayır-Qarahəsənli-Xılxına avtomobil yolu əsaslı şəkildə təmir edilmişdir. 27 saylı Yol İstismar İdarəsinin balansında olan Ağstafa-Xətai-Aşağı Kəsəmən yolunun şəhərdən keçən hissəsində asfalt örtük yenilənmiş, yerli əhəmiyyətli avtomobil yollarında təmir işləri aparılmışdır.

Rayon mərkəzi daha da abadlaşdırılmış, küçə və meydanlarda, park və xiyabanlarda səliqə-sahman yaradılmış, əksər çoxmənzilli binalar əsaslı şəkildə təmir edilmiş, həmin yaşayış binalarının həyətlərində istirahət yerləri yaradılmışdır.

Kənd və qəsəbələrdə də abadlıq və yenidənqurma işləri davam etdirilmişdir. Bu işdə yerli icra nümayəndələri və bələdiyyələr yaxından iştirak etmişlər. Keçən il 12,9 kilometr yola çınqıl tökülmüş, 93 elektrik dayağı yenisi ilə əvəz olunmuş, 11 subartezian quyusu təmir olunmuş, 3 su keçidi salınmış, 5 elektrik transformatoru təmir olunmuş, 2-si yenisi ilə əvəz edilmişdir.

Ümumtəhsil müəssisələrinin yenilənməsi istiqamətində də xeyli iş görülmüşdür. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində son bir neçə ildə Ağstafada 7 məktəb binası inşa edilmiş, digərlərində əsaslı təmir işləri aparılmışdır. Köhnəqışlaq kəndində 108 şagird yerlik, Kolayır kəndində 20 şagird yerlik modul tipli məktəb binası istifadəyə verilmişdir. Həzi Aslanov qəsəbəsində modul tipli məktəbin quraşdırılması başa çatdırılmışdır. Böyük-Kəsik kənd tam orta məktəbi üçün yeni binanın inşasına başlanılmışdır.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Bakı 2019-cu ili möhtəşəm atəşfəşanlıqla qarşıladı



Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən Dənizkənarı Milli Parkda təşkil olunan bayram atəşfəşanlığını paytaxtın minlərlə sakini izləyib.

Bulvar ərazisində ağacların bayramsayağı bəzədilməsi və işıqlandırılması Dənizkənarı Milli Parka xüsusi gözəllik verirdi. Bu mənzərəni seyr etmək, Yeni ilin sevincini paylaşmaq üçün şəhərimizin küçə və meydanlarına axışan bakılılar və paytaxtımızın qonaqları gündən-günə gözəlləşən, yeni görkəm alan doğma Bakımızın səmasını al-əlvan rənglərə boyayan bayram atəşfəşanlığına böyük maraq və heyranlıqla tamaşa edirdilər.

Qədəmlərin uğurlu olsun, 2019-cu il!

*AZƏRTAC*

# Naxçıvan şəhərində Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı qeyd olunub



Dekabrın 31-də Naxçıvan şəhər sakinləri və şəhərin qonaqları həmrəylik bayramını və Yeni ilin gəlişini böyük ruh yüksəkliyi və bayram gəzintisi ilə qeyd ediblər.

Naxçıvan şəhərinin mərkəzi meydanında yolka qurulmuş, al-əlvan işıqlarla bəzədilmiş şəhər bayram libasına bürünmüşdü.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ailə üzvləri ilə birlikdə bayram şənliyinə gəlib.

Gecə saatlarında Naxçıvan şəhərinin mərkəzi meydanında möhtəşəm bayram atəşfəşanlığı olub, Yeni il xoş ovqat və böyük təntənə ilə qarşılanıb.

Təkrar

## Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi açıq tenderə dəvət edir

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi öz tabeliyindəki respublikanın şəhər və rayonlarında yerləşən mühafizəyə ehtiyacı olan müəssisələrdə gözətçi və patrul xidmətlərinin satın alınması üzrə açıq tender elan edir.

Tenderdə gözətçi və patrul xidmətlərinin göstərilməsi sahəsində ixtisaslaşan peşəkar rezident və qeyri-rezident hüquqi şəxs, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər 1000 (bir min) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına köçürdükdən sonra tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (Əmlak Məsələləri Dövlət Komitəsi, otaq № 212, tel.: +99412 4902408, əlavə 103; faks: +99412 4903359) ünvanından ala bilərlər:

**Emitent**
Dövlət Xəzinədarlıq Agentliyi
Bank kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesabı: AZ41NABZ01360100000000003944
S.W.İ.F.T. bik: CTREAZ22
**Alan**
Əmlak Məsələləri Dövlət Komitəsi
VÖEN: 2000015631
H/H: AZ84CTRE00000000000002647970
Büdcə səviyyəsinin kodu -7
Büdcə təsnifatının kodu -142340

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 2 (iki) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır).*
*5. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış.*
*6. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış.*
*7. İddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri.*
*8. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd.*
*9. İddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər.*
*10. Digər sənədlər (tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tender təkliflərini qapalı, möhürlənmiş və imzalanmış ikiqat zərflərdə iki nüsxədə (üzərində "Əsli" və "Surəti" yazılmış) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin "Əsli" və "Surəti" arasında fərqlər olduqda üstünlük üzərində "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil etdikləri dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş nüsxəsini əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

Tender predmeti üzrə işlər satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 12 (on iki) ay müddətində icra olunmalıdır.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

*- iddiaçının bu sahədəki iş təcrübəsi;*
*- iddiaçının görüləcək işlərin təşkilinə dair təklifləri;*
*- görüləcək işlərin dəyəri.*

İddiaçılar öz təkliflərini əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) 11 yanvar 2019-cu il tarixə qədər (saat 17:00-dək), tender təklifini və təklifin bank təminatını isə qapalı, möhürlənmiş, imzalanmış ikiqat zərflərdə 22 yanvar 2019-cu il tarixə qədər (saat 17:00-dək) Bakı şəhəri, Yusif Səfərov küçəsi, 50 (otaq № 212, əlaqələndirici şəxs - Zəka İskəndərbəyli) ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 23 yanvar 2019-cu il tarixdə (saat 11:00-da) Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov küçəsi, 50 (otaq № 310) ünvanında açılacaqdır.

Zərflər iddiaçıların səlahiyyətli nümayəndələrinin iştirakı ilə onların təqdimolunma ardıcıllığı üzrə açılacaq və təkliflər elan ediləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

*Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Azərbaycan Respublikasında fəaliyyət göstərən maliyyə institutlarının rəhbərləri və digər mühüm vəzifə sahibləri üçün Avropa Direktivlərinə uyğun peşə tələblərinin və onların ölçülməsi alətləri barədə tövsiyələrin hazırlanması məqsədilə*
***kotirovka sorğusu elan edir***

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr. 27 ünvanına (əlaqələndirici şəxs: Rüstəm Kərimov, telefon: 012 493-50-58/285: Faks: 012 498-12-14.) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 8 yanvar 2019-cu il saat 11:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər.

**Xidmətin müddəti - 3 ay.**

Hər bir malgöndərən tərəfindən xidmət göstərilməsinə dair qrafik təqdim olunmalıdır.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Maqnitoqorskda ölənlərin sayı 38 nəfərə çatdı



Xilasedicilər Rusiyanın Maqnitoqorsk şəhərində yaşayış evində partlayış nəticəsində həlak olmuş 38-ci adamın cəsədini uçqunların altından çıxarmışlar. Bu barədə Rusiya Fövqəladə Hallar Nazirliyi məlumat vermişdir.

Məlumata görə, qohumları 23 nəfərin şəxsiyyətini tanımışlar. Həlak olmuş altı uşaqdan üçünün kimliyi məlum olmuşdur. İtkin düşmüş dörd nəfərin axtarışı davam edir. Həmçinin hadisə yerində yeni uçqunların baş verəcəyi təhlükəsi qalır.

Xatırladaq ki, ötən ayın 31-də səhər saatlarında Maqnitoqorskın Karl Marks küçəsində yerləşən onmərtəbəli yaşayış evinin bloklarının birində qaz sızması nəticəsində partlayış baş vermişdir.

## "Sarı jiletlər"in nümayəndəsi həbs olundu



Fransa polisi Parisdə icazəsiz etiraz aksiyası keçirdiyinə görə "sarı jiletlər" hərəkatının nümayəndələrindən birini - Erik Drueni saxlamışdır. Bu barədə BFM telekanalı xəbər verir.

Drue "sarı jiletlər"lə şəhərin mərkəzində rastlaşdıqdan sonra onlara qoşulmuşdur. Onunla birlikdə hərəkatın daha bir neçə tərəfdarı tutulmuşdur. Druenin vəkili vurğulamışdır ki, bu, qanunsuz həbsdir.

"Tabe olmayan Fransa" hərəkatının lideri Jan Lük Melanşon polisin hərəkətlərini pisləmişdir: "Erik Drue yenidən həbs olundu. Niyə? Hakimiyyətdən sui-istifadə. İndi polisin siyasəti "sarı jiletlər"in təşkilatçılarını təqib etməkdən ibarətdir".

Keçən ayın 23-də Drue qadağan edilmiş silah gəzdirdiyinə görə nümayişdə saxlanmışdır. Bundan əlavə, dekabrın 7-də Paris prokurorluğu "Şanzelize sarayına daxil olaq" çağırışlarına görə Drue barəsində təhqiqata başlamışdır. Drue BFM telekanalının efirində demişdir: "Biz saraya daxil olacağıq. Adamlar istəyirlər ki, onları eşitsinlər". Bu bəyanatdan sonra Paris polisi prefektinin prokurorluğa verdiyi ərizə əsasında Drue barəsində "cinayət və hüquq pozuntuları törətməyə təhrik etməyə görə" cinayət işi açılmışdır.

## Çin aparatı Ayın qaranlıq tərəfinə endi



Çində start götürmüş "Çane-4" planetlərarası stansiyası Ayın qaranlıq tərəfinə enmişdir. Bu barədə CCTV dövlət telekanalı xəbər verir.

"Çane-4" keçən ayın əvvəllərində start götürmüşdür. Bu, bəşəriyyət tarixində kosmik aparatın planetimizin təbii peykinin qaranlıq tərəfinə ilk enişidir. Missiya radioastronomik müşahidələrini, habelə Ayın səthinin strukturunun və tərkibinin tədqiqini ehtiva edir.

Çane Çinin Ayda yaşayan mifik ilahəsinin adıdır. 2013-cü ildə "Çane-3" missiyası çərçivəsində heyətsiz kosmik zond Aya enmişdir. Çin yaxın on il ərzində Aya ilk pilotlu missiya göndərməyi planlaşdırır.

## Niger ordusu "Boko Haram"ın 200-dən çox silahlısını məhv etdi

Nigerin hökumət ordusu yerüstü və hava qüvvələrindən istifadə etməklə genişmiqyaslı əməliyyat zamanı "Boko Haram" radikal qruplaşmasının 200-dən çox silahlısını məhv etmişdir. Bu barədə ölkənin Müdafiə Nazirliyinə istinadən "Frans Press" agentliyi xəbər verir.

Ordu Nigerin cənub-şərqində, Çad gölü rayonunda ekstremistlərin mövqelərinə hücum etmişdir.

Əməliyyat ötən ayın 28-də başlamışdır. Niger qoşunları ekstremistlərə əsas zərbəni Kamaduqu çayının vadisində, habelə Çad gölündəki adalarda endirmişdir.

Müşahidəçilərin dediklərinə görə, "Boko Haram" silahlıları çayların və gölməçələrin yaxınlığındakı bataqlıq yerlərdə özləri üçün sığınacaqlar və silah anbarları düzəldirlər.

Nazirlik vurğulamışdır ki, ordu əməliyyat zamanı canlı qüvvə və texnika sarıdan tələfat verməmişdir.

## Tramp və demokratlar büdcə böhranını həll edə bilmədilər



ABŞ Prezidenti Donald Tramp Demokratlar Partiyasının liderləri ilə görüşmüşdür. Görüş iştirakçıları federal orqanların işinin qismən dayandırılmasına səbəb olmuş büdcə böhranının ("şatdaun") həlli ilə bağlı yekdil mövqeyə gələ bilməmişlər.

Xatırladaq ki, ötən ayın 21-də Konqres Trampla fikir ayrılığı üzündən növbəti maliyyə ili üçün büdcə layihəsini təsdiqləməmişdir. Növbəti gün maliyyələşmə olmadığından bir sıra federal orqanlar müvəqqəti olaraq işini dayandırmışdır. Bu məsələ həllini tapanadək 800 minə yaxın amerikalı dövlət qulluqçusu maaş almayacaq.

Qulluqçuların bir hissəsi məcburi ödənişsiz məzuniyyətə göndərilmişdir. Hüquq-mühafizə və cəzaların icrası orqanlarının əməkdaşları əməkhaqqı almadan işlərini davam etdirəcəklər.

## Sinoptiklər xəbərdarlıq edirlər...

Sinoptiklər ölkə ərazisində gözlənilən küləkli və yağıntılı hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Bakıda və Abşeron yarımadasında yanvarın 4-ü günün ikinci yarısından 5-i səhərədək cənub-qərb küləyinin əsəcəyi, arabir sürətlənəcəyi, axşam isə arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcəyi gözlənilir.

Azərbaycanın rayonlarında yanvarın 4-ü və 5-də qərb küləyinin əsəcəyi, ayrı-ayrı yerlərdə arabir sürətlənəcəyi proqnozlaşdırılır.

## Kür çayının aşağı axınında suyun səviyyəsi artıb

Hazırda Böyük Qafqazın Quba-Xaçmaz bölgəsi çaylarında sululuq ongünlük normanın 100-150, Kiçik Qafqazın çaylarında 50-110, Lənkəran-Astara bölgəsi çaylarında isə 100-160 faizini təşkil edir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 3-də Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsi 3 santimetr artıb. Hazırda məntəqədə su sərfi saniyədə 163 kubmetr olmaqla ongünlük normanın 100 faizini təşkil edir.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində dəyişiklik müşahidə olunmayıb. Hazırda məntəqədə su sərfi saniyədə 64 kubmetr təşkil etməklə ongünlük normanın 91 faizinə bərabərdir.

Kür çayının aşağı axınında suyun səviyyəsində əsasən artım qeydə alınıb. Belə ki, suyun səviyyəsi Kür çayının Surra və Şirvan məntəqələrində 2, Salyanda 8, Araz çayının Novruzlu məntəqəsində 3 santimetr artıb. Lakin Kür çayının Bankə məntəqəsində suyun səviyyəsi dəyişməyib.

Hazırda Surra məntəqəsində suyun səviyyəsi 458, Şirvanda 347, Salyanda 317, Bankədə 263, Araz çayının Novruzlu məntəqəsində isə 188 santimetrə bərabərdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor Zahid Xəlilə qızı

**ŞƏLALƏ ZAHİD QIZININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elm və Təhsil Mərkəzi "Təfəkkür" Universitetinin rektorluğu, professor-müəllim heyəti və tələbə kollektivi universitetin prorektoru, professor İlham Musayevə əzizi

**MİSİR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İntiqam Əliyev və Kamran Xəlilov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında DSMF-nin İsmayıllı rayon şöbəsinin müdiri Kamran Muradova anası

**ADİLƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mahmud Məmmədov Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini Aftandil Babayevə qardaşı

**ƏMRAH QASIM OĞLU BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Günay Bank" ASC-nin kollektivi Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti sədrinin müavini Aftandil Babayevə qardaşı

**ƏMRAH QASIM OĞLU BABAYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Fazil Abdullayev, Eldar Əliyev, İlham Zeynalov, Rafiq Hüseynov, Muqdat İsmayılov, Vüqar Şıxməmmədov, Vüqar Şəfiyev və Məcid Miriyev Daxili İşlər Nazirliyi Maliyyə-Plan İdarəsinin rəis müavini Ramil Baloğlanova dayısı

**MAARİF OSMANOVUN**

Ağstafa rayonunda vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7073
Sifariş 1
Qiyməti 40 qəpik